**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**Azərbaycan ədəbiyyatı kafedrası**

*Əlyazması hüququnda*

**Gülsəfa Azər qızı Əmiraslanova**

# Məmməd Səid Ordubadinin romanlarında tarixilik və müasirlik məsələsi

**İxtisaslaşma: HSM-060201-2 Azərbaycan ədəbiyyatı**

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər: Röya Mürşüdova**

***filologiya üzrə fəlsəfə doktoru, b/m***

**BAKI-2022**

## MÜNDƏRİCAT

**Giriş**......................................................................................................3-6
**I Fəsil. Məmməd Səid Ordubadi nəsrində tarixilik və müasirliyin təzahürü** ..................................................................................................7-33
1.1.Məmməd Səid Ordubadinin nəsrində tarixi roman janrının formalaşması.....................................................................................7-22
1.2. “Qanlı sənələr” romanında erməni xislətinin ifadəsi və müasir yanaşmada erməni xisləti..............................................................................................22-33
**II Fəsil. Məmməd Səid Ordubadi romanlarının bədii xüsusiyyətləri**.................34-63
2.1. Məmməd Səid Ordubadinin romanlarında obraz yaradıcılığı.............................34-47
2.2. Ədibin romanlarında qaldırılan məsələlərin ideya-bədii xüsusiyyətləri .............47-63
**Nəticə**....................................................................................................64-66
**İstifadə olunmuş ədəbiyyat siyahısı**...................................................................67-69

# GİRİŞ

**Mövzunun aktuallığı.**Azərbaycan ədəbiyyatında bədii nəsrin inkişafı son iki əsrə təsadüf edir.XIX ərsdə M.F.Axundov tərəfindən əsası qoyulan bədii nəsrə daxil olan bu janrlar XX əsrdə özünün ən yüksək inkişaf mərhələsinə çatmışdır.Həmin illər ərzində ədəbiyyatımızı bir çox görkəmli nəsr ustaları təmsil etmişdir.M.S.Ordubadi də Azərbaycan ədəbiyyatının görkəmli roman ustalarından biridir. M.S.Ordubadi yaradıcılığında yer alan tarixi mövzunun əsas götürüldüyü romanları tarixi roman janrını formalaşdırmışdır.Ədib Azərbaycan ədəbiyyatında bu janrın əsasını qoymaqla bədii nəsrin inkişafı üçün olduqca geniş imkanlar açmışdır.Dahi sənətkar yaradıcılığı ilə öz millətinə xüsusi dəyər göstərmiş və öz doğma vətəni uğrunda mübarizə əzmini əsərlərinə yansıtmışdır.XX əsr Azərbaycan ədəbiyyatını Ordubadisiz təsəvvür etmək mümkünsüzdür.Ədəbiyyatda bir çox janrlarla çıxış edən dəyərli sənətkar uğurları ilə qələminin gücünü göstərməyi bacarmışdır.M.S.Ordubadinin yaradıcılıq fəaliyyətinə nəzər yetirdikdə görürük ki,bu fəaliyyət doğma xalqı ilə əlaqəlidir.Ordubadi dövrün ictimai-siyasi mənzərəsini öz əsərlərində olduqca incə cizgilərlə yarada bilmişdir.O,toxunduğu bütün məsələlərlə bağlı öz fikrini də söyləməyə çəkinməmişdir.M.S.Ordubadi əsərlərində aydınlıq gətirdiyi hər bir məsələ yalnız Azərbaycanla bağlı olmamışdır,dünya,ən əsasıda Şərq xalqları ilə bağlı əsaslı ideyalar ortaya qoymuşdur.M.S.Ordubadi həyatı bizim ədəbiyyat üçün şərəfli bir şəxsiyyət haqqında enskilopediyadır.M.S.Ordubadinin xalqın azadlığı uğrunda apardığı mübarizə tarixi yaddaşımızda silinməz izlər qoymuşdur. XX əsrin əvvələrində mətbuatda kiçik çaplı əsərlərlə çıxış edən Ordubadi qısa zaman ərzində epik yaradıcılığa keçmişdir.Ədəbiyyatda roman janrının daha geniş aspektdən dəyərləndirilməsində Ordubadi qələminin xüsusi rolu vardır.Ədibin ilk olaraq kiçik həcmli romanları "Bədbəxt Milyonçu" və "İki cocuğun Avropaya səyahəti" çapdan çıxır.Daha sonra 1930-cul ildə ən iri həcmli romanı olan "Dumanlı Təbriz" işıq üzü görür.Nəsr yaradıcılığında "Qılınc və Qələm" , "Gizli Bakı" romanlarıda xüsusi əhəmiyyət kəsb edir.

Bu gün M.S.Ordubadinin nəsr yaradıcılığına daxil olan romanlarını araşdırmaq və öyrənmək son dərəcə vacib və əhəmiyyətlidir.Ədibin romanları dövrün hadisələrini əks etdirdiyi kimi,digər tərəfdən bu sahədəki üslubunu öyrənmək üçün vacibdir. Hər bir dövr üçün aktual olan vətənpərvərlik,xalqın birliyi ideyası Ordubadinin tarixi romanlarının bütün zamanlarda aktuallığını qoruyub saxlayır.

**Tədqiqat işinin obyekti.**M.S.Ordubadi romanları dissertasiyanın əsas araşdırma obyektini təşkil edir.

**Tədqiqat işinin predmeti.**Araşdırmanın predmeti M.S.Ordubadi romanlarında tarixilik,müasirlik məsələsi,romanların ideya-bədii xüsusiyyətləri təşkil edir.M.S.Ordubadi romanlarından tarixi roman janrına aid olanlar və Cənub mövzusuna həsr olunmuş əsərləri geniş tədqiqata cəlb olunub.

**Tədqiqatın məqsəd və vəzifələri.**Tədqiqatın əsas məqsəd və vəzifəsi M.S.Ordubadinin nəsr yaradıcılığında tarixi roman janrının inkişafı üçün əsaslı rol oynayan əsərləri göstərmək,onun bu kimi romanlarının öyrənilməsinin zərüriliyini təmin etməkdir.Bununla yanaşı romanlarının ideyalarını açıb göstərməklə ədibin əsərlərinin sənətkarlıq xüsusiyyətlərini çatdırmaq əsas məqsədlər sırasına daxildir.XX əsr Azərbaycan ədəbiyyatının roman ustası olan Ordubadinin bu sahədəki xidmətlərini ictimaiyyətə çatdırmaq da tədqiqatın işinin məqsəd və vəzifəsinə aiddir.Dəyərli sənətkarın romanlarında ötürdüyü milli-azadlıq ideyalarının ədəbi-bədii fikirdə daha da güncləməsini göstərmək məqsədlər sırasında qeyd oluna bilər.Bu məqsədlərdən çıxış edərək qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

a. M.S.Ordubadinin tədqiqata cəlb edilmiş romanlarının ideya-bədii zənginliyinə diqqət yetirmək
b. Ədibin romanlarında bu vaxta kimi nəzərdən yayınan məsələləri göstərmək

**Tədqiqat işinin əsas mənbələri.**Tədqiqat M.S.Ordubadinin nəsr yaradıcılığını əhatə edən mənbələrdən,irili-xırdalı bir çox əsərlərə istinadən qələmə alınmışdır.Dissertasiya işinin yazılması zamanı Ordubadi yaradıcılığı ilə bağlı köhnə və yeni mənbələrdən,bu

sahəyə aid olan məqalə və dissertasiyalardan,internet resurslarından istifadə olunmuşdur.M.S.Ordubadi haqqında olan kitablardan,romanlarının təhlilinə həsr olunan mənbələrdən də faydalanılmışdır.M.İbrahimov, C.Xəndan, Y.Axundov, İ.Həbibbəyli, M.Məmmədov və s. kimi ədəbiyyatşünas ailmlərin M.S.Ordubadinin yaradıcılığına həsr etdiyi məqalələr,monoqrafiyalardan mənbə kimi istifadə edilmişdir.Qəzet və jurnallarda ayrı-ayrı vaxtlardan çap edilmiş materiallarda tədqiqat işində mənbə olaraq istifadə edilmişdir.

**Tədqiqat işinin aprobasiyası.**Tədqiqat işi Azərbaycan Dillər Universitetinin Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.Dissertantın tədqiqat işinə dair məqalə və tezisləri müxtəlif elmi jurnallarda nəşr olunmuşdur.Mövzu ilə bağlı magistrantın 1 məqalə və 1 tezisi çap olunub.

**Tədqiqat işinin elmi-nəzəri,metodoloji əsasları.**Tədqiqat işini qələmə alarkən dissertant çağdaş dövrün tələblərini əsas götürərək tədqiqat işini ərsəyə gətirmişdir.İstifadə olunan tarixi-müqayisəli metod M.S.Ordubadi yaradıcılığına həsr edilən bəzi əsərlərə tənqidi fikir söyləməyə də imkan vermişdir.Bu mövqedən çıxış etmək M.S.Ordubadi yaradıcılığına yeni aspektdən yanaşmağa yardımcı olmuşdur.M.S.Ordubadinin nəsr yaradıcılığı müasir filoloji düşüncənin prinsiplərinə uyğun olaraq təhlil edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.**Ədəbiyyatşünaslıqda bu vaxta qədər M.S.Ordubadinin ümumi yaradıcılığı və bununla yanaşı təkcə yaradıcılığının bir qolu olan nəsr sahəsi haqqında xeyli araşdırmalar aparılmış,məqalələr və monoqrafiyalar yazılmışdır.Lakin bu araşdırmaların əksəriyyəti ədibin əsərlərinin ideolji tərəfini daha ön planda vermişdir.Ümumi nəsr yaradıcılığına daxil olan romanları ilə bağlı geniş obyektiv təhlil edilməmişdir.Tədqiqatın elmi yeniliyi ədibin romanlarının obyektiv araşdırılması və geniş təhlilə cəlb edilərək,yenidən şərh verilməsindədir.Dissertasiyada M.S.Ordubadinin romanlarının geniş bədii təsviri göstərilmiş,ədibin yaradıcılığında olan bəzi romanları ilk dəfə olaraq tarixilik və müasirlik baxımından şərh edilmişdir.

**Mövzunun praktik əhəmiyyəti.**Tədqiqat işi ilk olaraq ədəbiyyatımızın,əsasən də M.S.Ordubadi yaradıcılığının öyrənilməsi və inkişafı üçün dəyərli bir mənbədir.Ordubadi yaradıcılığını müasirlik baxımdan şərh edilməsi və qiymətləndirilməsi üçün istifadəyə cəlb edilə bilər.Bununla yanaşı M.S.Ordubadi romanlarına yenidən müraciət edilməsi və maraqlı nəticələr əldə edilməsi olduqca əhəmiyyətlidir.Dissertasiya işi bu sahədə araşdırma aparan başqa mütəxəssislər üçün də maraq kəsb edə bilər.

**Dissertasiyanın quruluşu.**Tədqiqat işi giriş,hər biri ayrılıqda 2 yarımfəsildən ibarət olmaqla 2 fəsil,nəticə və istifadə olunan ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL. MƏMMƏD SƏİD ORDUBADİ NƏSRİNDƏ TARİXİLİK VƏ MÜASİRLİYİN TƏZAHÜRÜ

## 1.1Məmməd Səid Ordubadinin nəsrində tarixi roman janrının formalaşması

Ədəbiyyatda tarix və müasirliyin vəhdəti əsas araşdırma obyektlərindən biridir. "Tarix" sözü geniş aspektli bir anlayışdır və buna müasir yanaşma ədəbiyyat tarixinin əsasını təşkil edir. Müasirlik elə bir kateqoriyadır ki, uzun zaman keçsə belə öz dəyərini itirmir və daim aktuallığını qoruyur. Müasirlik Azərbaycan ədəbiyyatında ən doğma olanını seçməkdə, tariximizdə ən əsas olan mövzulara toxunmaqda çox vacib göstəricidir. Müasirlik ədəbiyyatın əzəli qanunlarından olub tarixiliklə əks qütbləri təşkil edir. Ədəbiyyatda tarix və müasirlik məsələlərinin mahiyyətinə düzgün yanaşmaq üçün həm tarixi hadisələri doğru dərk etmək, həm də müasir ədəbi prosesin düzgün şəkildə izlənilməsi əsasdır. Müasirlik tarixi dəyərlərin meyarı və yeni əlamətləri şəklində təzahür edir.

Tarixilik və müasirliyin vəhdəti Azərbaycan ədəbiyyatında nəsr əsərlərində mövzu və problematika baxımından xüsusi əhəmiyyətə malikdir. Nəsr əsərlərində roman janrı ən çox müraciət edilən janrdır və epik növün bu janrı həyat hadisələrini geniş planda əks etdirməyə imkan verir. Romanda digər janrlardan fərqli olaraq obrazlar öz rəngarəngliyi ilə seçilir, hadisələr isə daha əhatəli və müxtəlif yanaşmalı təqdim olunur. Nəsr əsərlərində tarixi məsələlərə yer verilməsi tarixi roman janrını formalaşdırdı. Tarixi roman janrında keçmiş canlandırılır və peşəkar sənətkar bu prosesi aydın və hərtərəfli yaratmağı bacarmalıdır. Tarixi romanda xalqların mübarizəsi, əzmkarlığı əks olunur və buna müasir yanaşmada keçmişin bu cür keşməkeşli hadisələrindən dərs çıxarmağın vacibliyi vurğulanır. Bu qəbildən olan romanlar tarixi hadisələr haqqında olduqca faydalıdır. Yavuz Axundovun qeyd etdiyi kimi, "tarixi roman həmçinin tarixi öyrənməyi asanlaşdırır" [ 5,s .7].

Ədəbiyyatımızda tarixi roman janrına müraciətin əsas əhəmiyyəti xalqın tarixi keçmişini öyrənməsində əsas mənbə olmasıdır. Tarixi romanlara müraciət edilməsi ədəbiyyatımızda bir yenilik olsa da, o vaxtlar atılan bu addıma layiqincə dəyər

verilməmişdir. Tədqiqatçı Tofiq Hüseynov bu barədə yazır: “Tarixi roman janrına vulqar sosioloji münasibət bəsləyənlər yazıçının tarixdən mövzu götürməsinə müasirlikdən qəsdən qaçmaq, sovet quruculuğu ilə gizli polemikaya girmək vasitəsi kimi baxır, bu mənada tarixi romanın zərərli təsirindən danışırdılar. Yazıçının tarixi mövzuya üz tutmasını müasir həyatı bilməmək kimi yozanlar da vardı” [19, s.8].

Tarixi roman janrının əsas şərtlərindən biri yazıçı təxəyyülünün dövrün hadisələri ilə qarşılıqlı əks olunmasıdır. Yazıçıların tarixi roman janrına müraciət etməsinin əsas səbəbi millətinin tarixi keçmişini oxuculara çatdırmaqdır. Lakin tarixi romanlar tarix demək deyil. Tarixi roman janrında əsərlərin yaranmasında yazıçı təxəyyülünün böyük rolu vardır. Yazıçı tarixi koloriti düzgün və hadisələri daha dolğun qurmaq üçün tarixdən məlum olmayan obrazlara müraciət edir. Bu cür qəhrəmanlar yaratmaq üçün yazıçı öz təxəyyülünü işə salır və buna ədəbiyyatda bədii uydurma adı verilir. Tarixi romanlarda bədii fantaziyasız canlandırma romanın bir qədər zəif olmasına gətirib çıxarır. Yazıçı öz təxəyyülündə yer verdiyi kimi yaratmaq istədiyi dövrün tarixi məsələlərini düzgün əks etdirməyi bacarmalıdır. Yazıçının dövrün tarixi mənzərəsini oxucuya çatdırmasında ona tarixlik prinsipi yardımcı olur. Bunun üçün tarixi roman janrına müraciət edən yazıçı dövrü düzgün araşdırmağı bacarmalıdır. Yazıçının müraciət etdiyi materiallar dolğun və hərtərəfli olmalıdır ki, müraciət etdiyi tarixi dövrü öz əsərində mükəmməl şəkildə əks etdiməyi bacarsın.

Ədəbiyyatşünasların doğru toxunduğu məqamlardan biri də odur ki, roman Azərbaycan ədəbiyyatında ən gənc janrlardan biridir. Roman janrının ədəbiyyatımızda formalaşması XIX əsrin sonu, XX əsrin əvvəllərinə aid edilir. Keçən əsrin əvvəllərinə qədər ədəbiyyatda romanlar yazılırdı. Ancaq indiki standartlara uyğun olaraq yanaşıldıqda, bunları tam olaraq roman adlandırmaq olmazdı. Buna baxmayaraq, yazılan əsərlər Azərbaycan ədəbiyyatında roman adlı janrın bir çox xüsusiyyətlərini ifadə etdiyi üçün sübut idi. “Bahadır və Sona” (Nəriman Nərimanov), “Əsrimizin qəhrəmanları” (Abdulla Şaiq), “Solğun çiçək” (Əli Səbri), “Can yanğısı” (Abdulla bəy Divanbəyoğlu), “Bir yetimin naləsi" və yaxud qardaşın qardaşa etdiyi xəyanət” (Bağır Cabbarzadə),

“Gözəllərin vəfası”, “Xoşbəxtlər”, “Neft və milyonlar səltənətində” (İbrahim bəy Musabəyov), “İki nakam” (Nemət Bəsir) və digər romanlar ötən əsrin əvvəllərində roman janrının ədəbiyyata bəxş etdiyi dəyərli bədii nümunələr hesab olunur.

Məmməd Səid Ordubadinin “Bədbəxt milyonçu” romanı ilk Azərbaycan romanlarından biridir. Bu roman ədəbiyyatımızda Cənub mövzusunda qələmə alınan dəyərli nümunələrlə bir qəbildəndir. Məmməd Səid Ordubadi ədəbiyyatımızda ilk romanlar sırasında verilən bu əsərinin mövzusunu İran həyatından götürüb. Dövr üçün yeni janr olan roman standart qəliblərə uyğunlaşmadığı üçün Məmməd Səid Ordubadi nəsrində xüsusi yeri olan bu əsəri bəzən povest də adlandırmışlar. “ Əsər haqqında ilk rəy verən məşhur tənqidçi Seyid Hüseyn “Bədbəxt milyonçu”nun roman olduğunu bildirib” [23]. Romanın əsas mövzusu İran mühitinin ağrılı-acılı görünüşünün təsviri idi. “Əşar”, “Rzaqulu xanın tərcümeyi halı”, “Böyükxanımın tərcümeyi halı”, “Təbriz şəhərinin havası və təmizliyi”, “Üç ildən sonra” başlıqları ilə verilən hissələr romanın ayrı-ayrı mövzular ilə bağlı məlumatlardan ibarətdir. İlk hissə Rzaqulu xanın yaşadığı mühitin təsviri ilə başlayır. Tərcümeyi hal olan hissələr böyük həcmə malik olmasa da romanın əsas obrazları haqqında ilkin məlumatları özündə ehtiva edir. Romanın ən dolğun hissələri olaraq dördüncü və beşinci hissələri qeyd edə bilərik. Çünki hadisələrin əsas məğzi məhz o başlıqlarda yer alır.

Əsərin əsas qəhrəmanı Rzaqulu xan Fransada təhsil alır və sonradan özünün böyük arzularını həyata keçirmək üçün vətəni Təbrizə qayıdır. Onun arzuları qəzet nəşr etdirmək, məktəb və xəstəxanalar açdırmaq, Təbriz-Tehran arası dəmiryolu düzəltdirmək, bir sözlə xalqın rifahını yaxşılaşdırmaq, xalqına yaxşı həyat qurmaq idi. Öz yurduna bağlılıq ona edilən iş təklifini də rədd etməsinə səbəb olur. Vətənə olan sevgisini öz övladları ilə müqayisə edən Rzaqulu xanın dilindən verilən bu hissə olduqca əhəmiyyətlidir: “İran iki oğlumdan, bir qızımdan da mənim üçün əzizdir” [31, s.348].

Ədəbiyyatımzda dəyərli sənətkarlardan biri olan Cəfər Cabbarlının yaradıcılığına daxil olan “Oqtay Eloğlu” əsərinin qəhrəmanı Oqtayı , M.S.Ordubadinin “Bədbəxt Milyonçu” əsərinin əsas obraz olan Rzaqulu xanla müqayisəli şəkildə təhlilə cəlb etmək

olar.Hər iki əsərin baş obrazı bir amal uğrunda mübarizə aparır.Oqtay da,Rzaqulu xan da maarifçiliyin carçısı idilər.Hər iki obraz öz vətəninə,milləti bağlı və xalqın inkişafı üçün savaşırdılar.Dəyərli sənətkarların əsərlərinin müqayisəsində daha bir oxşar cəhət olaraq mühit məsələsin qeyd etmək olar.C.Cabbarlının “Oqtay Eloğlu” əsərində cəhalətin qurbanı,pulun əsiri olan bir mühit işıqlandırıldığı kimi M.S.Ordubadi də bu romanında cəhalət olan mühitdə inkişafın çətinliyindən bəs etmişdir.

C.Cabbarlının ən yaxşı əsərlərindən biri olan “Oqtay Eloğlu” faciəsinin əsas obrazı Oqtay xalqını,vətənini bütün varlığı ilə sevən gənc idi.Oqtay müəllif tərəfindən aktyor olaraq təsvir edilir və onun bütün mübarizəsi yaradıcı sənətkarlıq ideyalarından qaynaqlanırdı.Oqtay qarşısına olduqca çətin bir məqsəd qoyur və bu məqsəd uğrunda mübarizə aparır.Bu böyük amal,istək Oqtayın teatr yaratmaq arzusu idi.Azərbaycan xalqının teatrının yaranması xalqın inkişafının başlıca meyarlarından idi.Ədib də əsərində xalqın özünüdərk məsələsin bu şəkildə işıqlandırmağı bacarmışdır.Əgər millət özünü təsdiq etməyi bacarıbsa,bu o deməkdir ki,onun öz milli mədəniyyəti vardır.Milli mədəniyyətində formalaşması üçün Oqtay kimi gənclərin olması vacib idi.C.Cabbarlı da öz əsərində xalqın içərisindən çıxan qeyrətli bir övladın-Oqtayın mübarizəsini təsvir etmişdir. “Oqtay Eloğlu” əsərini oxuyanda diqqəti çəkən məqamlardan biridə onun bu mübarizədə öz həyatından belə keçməsi idi.Oqtayın hər anı onun qarşısına qoyduğu uca amala bağlı idi.Oqtay ailəsinin belə çətin vəziyyətdə yaşamasına göz yumurdu.Çünki Oqtay üçün Azərbaycan teatrının formalaşması hər şeydən yüksəkdə idi.Oqtay nə qədər çətinliklərlə üzləşsədə ruhdan düşmür və mübarizəsində davam edir.Lakin həyat Oqtayın bu mübarizəsində ciddi maneələr çıxarır.Bu maneələr isə Oqtayın faciəsinə səbəb olur.Oqtayın mübarizəsinə maneə onun Firəngizə olan sevgisi olur.Bu sevgi hər iki gəncin faciəsi ilə nəticələnir.Oqtayı dəlicəsinə sevən Firəngiz qardaşı Aslan bəyə qarşı gələ bilmir və buna görədə sevdiyi gəncə rədd cavabı verərək onun həyatını dönülməz uçurumlara sürükləyir.Firəngizin ona rədd cavabı verməsi Oqtayın insanlığa qarşı olan nifrət hissini daha da dərinləşdirir.Yaşadığı bu sarsıntılı anlar keçmədən Oqtay bir daha çətin məqamla qarşılaşır.Oqtay qubernatoru təhqir etdiyinə görə həbsə atılır və sonra isə

sürgünə göndərilir.Oqtay on iki il sürgün həyatı yaşadıqdan sonra öz vətəninə geri dönür.Səhnəyə bağlı olan Oqtay yenidən aktyor olaraq səhnəyə atılır.Lakin bu məqamda da Oqtayın irəli getməsini istəməyən düşmələri ona maneələr törədirlər.Bu çətin məqamın yaranma səbəbi rolu oynayacq aktrisanın gəlməməsi olur.Aktrisa isə Oqtayı çətin vəziyyətdə qoymaq üçün bunu qəsdən edir.Bu məqamda Oqtayın köməyinə Firəngiz gəlir və bu rolu oynayır.Oqtayın qarşılaşdığı bu sarsıntılı an onun səhnəni reallıq kimi dərk etməsinə səbəb olur.Səhnədə oynanılar Şillerin "Qaçaqlar" pyesi yox,Oqtayın real həyatı olur.Oqtay səhnədə Firəngizi öldürür və bunu etməkdə məqsədi Firəngizin dəfələrlə əllərdə oyuncaq olmağına qarşı çıxmaq idi.Əsrin sonunda Oqtayın dilindən verilən bu misralarda dünyada ədalətin olmadığını bildirir: "O q t a y. Bıçaq! Al. (Atır.) Fəqət istəməz... Mən özüm gedib özümü ədalət divanına təslim edəcəyəm. Yox, yox, onu Şillerin idealları edə bilər. Səfillər padşahı O q t a y Eloğlu onu etməz. Mən dünyada ədalət divanı adına bir şey tanımıram. Hamısı yalandır! Yalan deyir Şiller! Mən yenə ancaq bu zavallı xalqı tanıyır, ona müraciət edirəm. Ona təslim oluram. Son söz onundur. Qoy o söyləsin: kimdir müqəssir? Yaşadaraq öldürən, öldürərək yaşadan, sevərək parçalayan, parçalayaraq sevən əliqanlı səfillər padşahı Oqtay Eloğlumu? Bu zavallı, günahsız yavrumu? Əski mühitin bu gülünc heykəlimi? Və yaxud alman dahisi böyük Şiller özümü?"[10,s.289]

C.Cabbarlının bu əsərində Oqtay Azərbaycan ziyalılarının,vətənpərvər ruhda olan gənclərin ümumiləşdirilmiş obrazı idi. "Oqtay Eloğlu" və "Bədbəxt milyonçu" əsədlərinin hər ikisində qəhrəmanların böyük ideallar uğrunda apardığı mübarizə əsas olaraq təsvir edilmişdir.Lakin hər iki qəhrəman qarşılarına qoyduğu amala çatmaq üçün düzgün addımlar atmağı bacarmadıqları üçün məğlub olurlar.Onların məğlub olmasında digər bir əsaslı maneə isə cəmiyyətin cəhalət girdabından azad olmaması idi.

M.S.Ordubadi cənub mövzusunda olan Məşrutə hərəkatınıda bu romanında vurğulamışdır. O dövrdə İranda baş verən Məşrutə hərəkatı Rzaqulu xan üçün böyük bir sevinc mənbəyi olur. Rzaqulu xanın ümidləri daha da artır. Daha sonra İran idarəçiliyindən yaranan ümidsizlik Rzaqulu xanın Məşrutəyə olan inamını məhvə

sürükləyir. İran şahı Məhəmmədəli şahın sağ olduğu müddətcə Məşrutənin heç bir əhəmiyyət verməyəcəyi göz önündə idi. Maarifçi görüşlərin carçısı olan Rzaqulu xan öz mühitinin problemlərini maarif yolu ilə həll etməyin mümkün olduğunu düşünürdü. Rzaqulu xan və övladları maarifçi və Avropa təhsilli idilər. Lakin onlar nə qədər mübarizə aparsalar da heç kəs onları başa düşmürdü. Şərq mühitinin cəhaləti Rzaqulu xanın irəli getməsinə maneə törədirdi. Bu anlaşımazlıqlardan sonra bu maarifçi görüşlü ailə dövrün nadanlıq və xurafatının qurbanına çevrilir. Ailənin faciəyə sürüklənməsinin başlıca səbəbkarı Rzaqulu xanın arvadı Böyükxanım olur. Böyükxanımın ərinin fikirlərinə qarşı çıxması və ona heç vaxt qulaq asmaması onların qızı Münəvvərin faciəli həyata atılmasının əsas səbəbi olur. Böyükxanımın cəhalətin aparıcı obrazı kimi verilməsi təhsilli qızı Münəvvəri yaşlı və varlı-dövlətli Qulam xana ərə vermək istəməsində göstərilir. Münəvvər öz atasından gizli anası tərəfindən Qulam xanla nişanlandırılır. Bu atılan addımlardan sonra Münəvvərin fəci həyatı təsvir edilir. Qulam xanın Münəvvərlə evlənməsində əsas məqsədi atasının var dövlərini ələ keçirmək idi. Maarifçilik ideyalarının daşıyıcısı, vətəninə dərin eşq bəsləyən Rzaqulu xan öz arzularına çatmadan dünyasını dəyişir. Atalarının yolunu davam etdirmək istəyən oğlanlar –Pərviz xan və Hacı xan Qulam xan tərəfindən öldürülür və maarrifçi şəxslərin nadanlığın qurbanı olduğu romanın sonluğunu təşkil edir. Qardaşlarının ölümünü eşidən Münəvvər isə bu qaranlıq mühitdə artıq yaşaya bilməyəcəyini yəqin etdikdən sonra intihara əl atır və həyatını sonlandırır. Roman bir ideal uğrunda gedən mübarizənin kiçik ailə timsalında verilən faciəsi ilə sonlanır.

M.S.Ordubadinin romanında yaratdığı Pərviz xan və Hacı xan obrazları Nəcəf bəy Vəzirovun “Müsibəti-Fəxrəddin” əsərindəki Fəxrəddinin xələfləridir.Azərbaycan ədəbiyyatı tarixində ilk faciə olaraq qiymətləndirilən bu əsər Nəcəf bəy Vəzirov yaradıcılığında xüsusi əhəmiyyət kəsb edir.M.S.Ordubadinin yaratdığı Pərviz xan və Hacı xan maarifçi ideyalar uğrunda atdıqları addımlar ilə Nəcəf bəy Vəzirovun qəhrəmanı olan Fəxrəddinin açdığı cığırla öz yollarını davam etdirməyə çalışırlar.

“Müsibəti Fəxrəddin” faciəsinin əsas mövzusunu iki ailə arasında olan mübahisə təşkil edir.Bu mübahisə mülkədar ailələrin qan davasıdır.Biz bu faciədə köhnəliklə yeniliyin mübarizəsinin şahidi oluruq. Eyni şəkildə M.S.Ordubadi də “Bədbəxt milyonçu” romanında bu mübarizəsi təsvir etmişdir. “Bədbəxt Milyonçu” romanında isə yeni ideyaların carçısı olaraq Rzaqulu xan və onun oğulları-Pərviz xanla Hacı xan göstərilir.Əsərdə yeniliyi məhz dövrün ziyalısı olan Fəxrəddin təmsil edir.Fəxrəddin bəy xaricdə təhsil alan, mülkədar ailəsinə mənsub olan gənc ziyalı idi.Nəcəf bəy Vəzirov bu obraz vasitəsilə humanist ruhlu bir gənci əsərinə daxil edir.Maarifçilik ideyalarını həyata keçirmək istəyən Fəxrəddin vətənə qayıtdığı gündən bunun üçün mübarizə aparır.Fəxrəddin düşdüyü bu qaranlıq mühitdə cəhalətə qarşı mübarizəsini bezmədən davam etdirməyə çalışır.Əsəri oxuyarkən Fəxrəddinin bu yolda atddığı addımların şahidi oluruq.Fəxrəddinin bağ saldırması,məktəb və xəstəxana açması onun xalqı üçün etdiyi xeyir işlərdən idi.Biz xalqı üçün belə addımlar atan obrazı M.S.Ordubadi romanında da müşahidə edirik. “Bədbəxt Milyonçu” romanında Rzaqulu da Fəxrəddin bəy kimi öz arzularını reallaşdırmaq üçün qəzet nəşr etdirir,məktəb və xəstəxana açdırır.Hər iki qəhrəmanın tək istəyi xalqı maarifləndirmək və onlara yaxşı həyat bəxş etmək idi. “Müsibəti-Fəxrəddin” faciəsində Fəxrəddin baş verən qad davasını sonlandırmaq üçün Rüstəm bəylə də barışmağa səy göstərir.Əsərin mənfi planda təqdim olunan qəhrəmanıda Rüstəm bəydir. Zülmkarlıq Rüstəm bəyin xislətində olan ən əsas nüansdır.Qana doymayan bu obraz oğlu Rəşidin ölümündə Fəxrəddin və onun ailəsini cəzalandırır.Fəxrəddinin ailəsinə verdiyi cəzalardan ürəyi soyumayan Rüstəm bəy onları daha ağır dərdə düçar etmək istəyir və bunun üçün də Fəxrəddini öldürməyi planlayırdı.Fəxrəddin isə ilk gündən düşdüyü bu mühitin halına acıyır və insanların necə belə cəllad olduqlarını qəbul edə bilmirdi.Fəxrəddinin dilindən verilən bu hissə onun düşüncələrinin göstəricisidir: “Qəribə işə düşmüşəm, and olsun Allaha, bu kəsafəti-mədə ilən mənə ağıl öyrətmək istəyirlər... Canım, beş gün deyil bu vəhşi tayfanın içinə gəlmişəm, az qalıbdır ki, məni cəllad eləsinlər. Xudaya, gör mən nə dərdi çəkirəm, bunların fikri nədir! Bədbəxt müsəlman, şəriətdən bixəbər, avam müsəlman. Fəqir-

füqəralar yaddan çıxıb, yetimlərə rəhm kəsilib, elm yox, sənət yox. Girmişik meydana, əldə qılınc, hərif axtarırıq. Bismillah buyurun görək kim artıq bihəyadır, kim cəbr etməkdə, baş kəsməkdə qoçaqdır. Tfu, xaraba qalasan, ölkə! Heyf sənə, gözəl şəriət! Heyf sənə, gözəl islam."[46, s.122].Əsərin sonunda böyük ideyaların daşıyıcısı Fəxrəddin ölür və onun bu mübarizəsi yarımçıq qalır.Eləcə də M.S.Ordubadinin "Bədbəxt Milyonçu" romanının qəhrəmanları Fəxrəddinin xələfləri olan Pərviz və Hacı xan da öldürülür və onlarında xalqı üçün apardığı mübarizə yarım qalır.

Məmməd Səid Ordubadinin roman janrında ilk qələm təcrübəsi olan bu əsərindəki qəhrəmanlar olduqca böyük ideaların daşıyıcısı idi. Amma bu ideal uğrunda mübarizə aparmağı bacarmırdılar. Rzaqulu xan öz övladlarını da maarifçi kimi böyüdür və özü vətənini necə sevirdisə övladlarına da bu sevgini aşılayır. Rzaqulu xan məşrutə uğrunda övladlarının da mübarizə aparmalarını istəyirdi və bunun üçün də vəsiyyət edəcəyini söyləmişdi. Oğlan övladları Pərviz və Hacı xan İran despotizminin gətirdiyi nadanlıq və gerilik uğrunda hər şeylərini qurban verməyə hazır idilər. Pərviz xanın dilindən verilən anasına ünvanladığı əsərdən qeyd etdiyimiz nümunə bu amalın əsas göstəricisidir: "Doğrudur, sən bizim anamızsan. Lakin bizim həqiqi anamız da İrandır. Çünki bizim ətimiz qanımız bu torpaqdandır. Görürsən, əcnəbilər bu madəri-həqiqinin namusuna, ismətinə həqarət əli uzadır. Bu tövr həqarət əllərini burub qatlamaq üçün iranlılara elmli bir əl lazımdır". [31,s.353]. Pərviz xan bu geriliyi aradan qaldırmağın tək yolu olaraq elmli şəxslərin mübarizə aparmasında görürdü.

Romanın digər diqqət çəkən əsas obrazlarından biri Rzaqulu xanın qızı Münəvvərdir. Məmməd Səid Ordubadi əsərində yaratdığı bu obrazla ədəbiyyatda yeni fikirli qadın surətini formalaşdırır. Münəvvər də qardaşları kimi vətəninə dərin məhəbbət bəsləyən, xalqının gələcəyini düşünən biri idi. İranda baş alıb gedən cəhalət Münəvvərə də təsir edən əsas amillərdən olur. Məhz romanda cəhalətin qurbanı kimi verilən qəhrəmanlardan biri olan Münəvvər anasının ona rəva gördüyü ağır həyatı yaşayır. Anası Böyükxanım tərəfindən zorla evləndirildiyi Qulam xanın hər cür təhqirinə dözməyə məcbur qalan Münəvvər cəhalət qurbanı olan İran qadınlarının

ümumiləşdirilmiş obrazı olaraq diqqəti çəkir. Qulam xan onu döysə də, söysə də, hətta ona əzab versə də Münəvvərin anası bütün bunları qadınların həyatının qanunu olduğunu bildirir: “Qızım heç ağlama! Övrət olanın həmişə gərək qabırğası ağacda olsun, övrəti döyərlər də, söyərlər də, döyüb eşiyə buraxarlar. Gərəkdir ki, səbr eləsin, səs çıxarmasın. Heç bilirsən mən sənin yox olmuş atandan nələr çəkmişəm?” [31,s.398]. Qeyd etdiyim nümunədə Böyükxanımın dilindən verilən bu hissədə isə İran mühitində olan qadınların acınacaqlı halı canlandırılıb.

Əsərdə də qeyd olunduğu kimi mütərrəqi arzuların daşıyıcıları ilk təzyiqdən sarsılırlar və acımasız İran despotluğu onların həyatının məhvinə səbəb olur. Məmməd Səid Ordubadi tərəfindən böyük ustalıqla canlandırılan İran mühitində mübarizə aparmaq üçün maarifçi görüşlərlə yanaşı dərin mübarizə əzminin olması vacib məsələlərdən idi. Romanda göstərilən maarifpərvər qəhrəmanlar – Rzaqulu xan, Pərviz xan, Hacı xan müsbət obrazlar olsalar da zəif xarakterlərinə görə irəli getməyi bacarmırlar.

Əsərin ən ziddiyətli obrazı olaraq Böyükxanımı qeyd edə bilərik. Onun söylədiklərindən gah cəhalətin daşıyıcısı, gah da maarifçi ideyaları dəstəkləməyə çalışan bir obraz olduğu görünür. Qızının zorla ailə qurmasına səbəb olan Böyükxanım, bir tərəfdən də əri Rzaqulunun mübarizəsini anlamağa çalışır. O, ərinə onun elmli olduğunu amma bunun İran mühitində heç bir işə yaramayacağını bildirir. Bu romanda Məmməd Səid Ordubadi yaratdığı Böyükxanım obrazı ilə onun yaşadığı mühiti paralel təsvir edir. Böyükxanımın faciəsi bəlkə də onun belə tam qavraya bilmədiyi mühitin faciəsindən qaynaqlanırdı.

Avropa mühiti və oradan gələn yeniliyi təmsil edən obrazlar isə doktor Lui və onun ailəsi idi. Rzaqulu xanın öz arzularını həyata keçirmək üçün doktor Lui və onun arvadı Liza xanımla birgə çalışmaq istəyir. Maarifçilik yolunda atdıqları addımlardan biri də tərcüməçilik ilə məşğul olmaq olur. Bunu bir mübarizə yolu kimi düşünən Rzaqulu öz övladlarını Liza xanımın yanına göndərir.

Ədəbiyyatımızda bir çox yazıçılar tarixi roman janrına müraciət etmişlər. Tarixi roman janrının Azərbaycan ədəbiyyatına gəlişi XX əsrin 30-40-cı illərinə təsadüf edir. Azərbaycan ədəbiyyatında tarixi roman janrının ilk nümunəsi 1933- cü ildə görkəmli yazıçımız Məmməd Səid Ordubadi tərəfindən yazılıb.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Məmməd Səid Ordubadi də öz əsərlərində yer verdiyi tarixi məlumatlarla ədəbiyyat və tariximiz üçün əvəzsiz nümunələr yaratmışdır. Məhz ədəbiyyatımızda tarixi romanın ilk variantı onun qələmi ilə formalaşıb.

Azərbaycan ədəbiyyatında tarixi roman janrının dəyərli nümayəndəsi kimi şöhrət tapan Məmməd Səid Ordubadi "Dumanlı Təbriz" roman-epopeyası ilə ədəbiyyatımızda bu janrın əsasını qoymuşdur. Yazıçının qələmə aldığı "Dumanlı Təbriz" roman epopeyası tarixi roman janrında olan ən dəyərli nümunələrdən biridir. Bu roman dörd kitabdan ibarətdir. Romanın əsas mövzusu Cənubi Azərbaycanda baş verən inqilabdır. İranın XX əsrin əvvəllərində olan iqtisadi-siyasi vəziyyəti və Rus inqilabının o dövrdə baş verən iğtişaşlı üsyanlara təsiri romanda əsas məsələ kimi işıqlandırılıb. "Dumanlı Təbriz" romanında tarixdə İran inqilabının qəhrəmanları olan Səttərxan və Bağırxanın obrazları böyük ustalıqla yaradılıb. Bu roman oxuculara Cənubi Azərbaycanda baş verən üsyanları, yaranan iğtişaşların səbəbini öyrənməkdə kömək olur və buna görə də ədəbiyyatımızda tarixi roman kimi öz dəyərini daim qoruyur.

Daha sonra Nizami Gəncəvi dövründən bəhs edən "Qılınc və qələm" romanında dahi şairin obrazını, o dövrün ictimai-siyasi mənzərəsini yaratmışdır. Həmçinin, "Döyüşən şəhər" və "Gizli Bakı" tarixi romanları da müasir tarix elmimiz üçün vacib olan müəyyən tarixi faktları bədii süjet və obrazlarla özündə ehtiva etməkdədir. Məmməd Səid Ordubadi bu romanları vasitəsilə Azərbaycan tarixinin müxtəlif dövrləri haqqında oxucuda müəyyən təəssüratlar yaratmağı bacarmışdır.

Akademik İsa Həbibbəyli "Böyük ədəbiyyat nəhəngi Məmməd Səid Ordubadi" adlı monoqrafiyasında yazıçını böyük rus ədibi Lev Nikolayeviç Tolstoyla müqayisə edir. Məmməd Səid Ordubadini "Azərbaycan ədəbiyyatının Tolstoyu" adlandırır.

“Fikrimizcə, bir çox cəhətdən görkəmli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadini bəzi cəhətlərinə görə dahi rus ədibi Lev Nikolayeviç Tolstoyla müqayisə etmək olar.” [18, s.7]. Çünki Məmməd Səid Ordubadinin yaradıcılığındakı tarixi romanları, xüsusən də “Dumanlı Təbriz” və “Qılınc və qələm” əsərləri özünün tarixi dəyəri baxımından Lev Nikolayeviç Tolstoyun “Hərb və sülh” romanı qədər əvəzsizdir.

Məmməd Səid Ordubadinin sonuncu tarixi romanı “Qılınc və qələm”dir. Tarixi roman janrında qələmə alınan “Qılınc və qələm” XII əsr tariximizi özündə əks etdirən zəngin ədəbi nümunələr sırasındadır. Məhz Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanında Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq dahi şair Nizami Gəncəvinin bədii obrazı yaradılmışdır. Əsərdə Nizami Gəncəvinin obrazı bütün cəhətləri ilə ən mükəmməl şəkildə canlandırılmışdır. Əsərdə tarixi məqamlara geniş yer verildiyi kimi, macəra xarakterli hadisələr də az deyil. Romanda bu təsvirləri Dilşad, Səba xanım Darrətülbağdad surətləri ilə əlaqədar olan təsvirlər də görə bilirik. Burada məqsəd oxucunun marağını əsərə daha da artırmaq məqsədi daşıyır.

“Qılınc və qələm” romanında Nizami ilə yanaşı, Xaqani Şirvani, Məhsəti xanım Gəncəvi, Əbül-üla Gəncəvi, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Əbülmüzəffər, Şirvanşah III Toğrul kimi onlarla başqa tarixi simaların obrazları da yaradılmışdır. Romanda qarşılaşdığımız bir çox obrazlarla müqayisədə Nizami obrazının timsalında əks olunan məsələlərə görə digərlərindən daha yüksəkdə dayanır. Romanda Nizami Gəncəvi obrazı özünün hərtərəfliliyi, dolğunluğu ilə bütün obrazlardan seçilir. Məmməd Səid Ordubadi Nizaminin şəxsi həyatını, yaşadığı mühiti, ictimai-siyasi görüşlərini bir-birilə sıx əlaqədə təsvir etmişdir.

Əsərdə Nizami Gəncəvinin timsalında bir çox məsələlər işıqlandırılmışdır. Həmin məsələlərdən biri vətənpərvərlik, xalqa, millətə bağlılıq ideyası idi. Qələmin gücünü təmsil edən Nizami xalqına, yaşadığı mühitə bağlı olan bir şair idi. Saray mühitindən uzaqda dayanmağı da məhz Nizaminin xalqına, vətəninə bağlılığından irəli gəlir. Nizami saray mühitinə kənardan baxsa da, orada baş verən hadisələrdən uzaq dayanmırdı. Azərbaycanla, xalqla bağlı bütün məsələlər Nizamini dərindən düşündürürdü. Nizami

xalq içərisində doğulmuş və qələminin gücünü məhz xalqdan aldığını söyləyirdi. Buna görə də saray mühitində yaşamağı üstün tutmurdu. Məmməd Səid Ordubadi romanda göstərir ki, Nizamini hətta sevgi çağırışları belə saray mühitinə cəlb edə bilmir. Biz, bunu iki məqamda daha aydın müşahidə edirik. Saray şairi olan Əbül-üla Gəncəvinin qızı Məhtəb xanım gənc şair Nizamini sevir və onu öz sarayında görmək istəyir. Gəncə hökmdarı olan Əmir İnancın qızı, gənc və gözəlliyi ilə hər kəsi valeh edən Qətibə də şairə pərəstiş edir, onu bütün varlığı ilə sevir. Lakin Nizami onların sevgisindən sadə kəndli qızı Rənanın məhəbbətini və mühitini üstün tutur, onlara olan sədaqətini heç bir başqa səadətə və verilən böyük vədlərə dəyişmir.

Məmməd Səid Ordubadinin əsərdə işıqlandırdığı bir məsələ xalqın birliyi, milli birlik ideyası olmuşdur. Bu ideyaların carçısı Nizami azərbaycanlıları Şərqdə ən yüksək mədəniyyətin yaradıcıları olduğunu deyirdi. Nizami hər zaman yaxın dostlarına və özünün həmfikirlərinə bu yüksək və çoxəsrli mədəniyyəti daima qorumağa və inkişaf etdirməyə səsləyirdi. Bunun üçün isə azadlıq, istiqlaliyyət uğrunda, yadelli qəsbkarlara və hökmdarlara qarşı mübarizədə xalqın sarsılmaz birliyinin vacibliyini vurğulayırdı. Nizami öz dostu – xalq qəhrəmanı sərkərdə Fəxrəddinə həmişə qarşıya çıxan hər çətinliyə xalqın birliyi sayəsində qalib gələcəyini deyirdi.

Romanda iki fərqli situasiyanın harmoniyası böyük ustalıqla qarşılaşdırılıb. Bu iki fərqli məqam elmin, yəni qələmin gücü və hərbin yəni, qılıncın gücü idi. Bu iki məqam Nizami və Fəxrəddin obrazının timsalında oxucuya çatdırılıb. Nizaminin Fəxrəddinə verdiyi məsləhətlər qılınc və qələmin birgəliyinin göstəricisiydi. Əsərdə verilən bu məqamlar dövlətin yalnız birtərəfli idarə olunmayacağına işarədir. “Bu mənada “Qılınc və qələm” müstəqil Azərbaycanın romanıdır. Məmməd Səid Ordubadinin “Qılınc və qələm” romanında ümid etdiyi qılıncın və qələmin birliyi əsasında yaranan milli dövlətçilik ideyası Azərbaycanda dövlət müstəqilliyinin qurulması ilə həyata keçirilmişdir” [4, s.54].

Nizami Gəncəvi əsərin əsas, mərkəzi obrazı idi. Bütün əsas hadisələr onun ətrafında cərəyan edirdi. Romanda qeyd olunan vacib məsələlərdən biri də Nizaminin

yaşadığı mühit və Azərbaycan xalqının çətin yaşayış şəraiti idi. Amma Nizami balaca evdə, çətin şəraitdə yaşasa da yenə də xalq içərisində olmaqdan çox xoşbəxt idi. Yazıçı, Nizaminin yaradıcılığının məhz xalqdan aldığı ilhamla yarandığını vurğulayıb. Əsərdə Nizami dövrü ilə yanaşı şairlik fəaliyyətinə də yer verilmişdir. Yazıçı Nizami Gəncəvi yaradıcılığına olan əsərlər barədə məlumat verib.

Məmməd Səid Ordubadi Nizami obrazının timsalında toxunduğu digər məsələlərdən biri də qadın azadlığı məsələsi idi. Nizami qadın azadlığı haqqında fikirlərini, həyatda özünün çoxcəhətli fəaliyyəti ilə də təsdiq edir – onun sözü ilə əməli arasında qırılmaz bir əlaqə vardır. Çox çətin şəraitdə, həyatını böyük təhlükə altına alaraq, Nizami şairə Məhsəti xanımı cahillərin, radikal dindarların ona qarşı yönələn iğtişaşlardan xilas edir. Məhsəti xanımın sürgündən vətənə qayıtmasına nail olur, böyük şairəni öz evində qoruyub saxlayır və həyat yoldaşı Rəna da bir qızı kimi Məhsəti xanımın daima qulluğunda dayanır. Onun qadın azadlığı məsələsinə münasibətində böyük insanpərvərliyi xüsusilə aydın görünür. Nizami öz əsərlərində yazdığı kimi, romanda da qadınların zəka, istedad və sənətdə kişilərdən heç də geridə olmadıqlarını dönə-dönə qeyd edir. Qadın hüquqlarını daima müdafiə edir, qadınların cəmiyyətdəki, gənc nəsillərin tərbiyəvi işindəki rolunu yüksək qiymətləndirir. Qadın azadlığı məsələsi həmçinin Fəxrəddin və Dilşad xəttində öz əksini tapır. Qılıncı təmsil edən Fəxrəddin, qələmi təmsil edən Nizaminin mənəvi dəstəyi ilə Dilşadı və digər Azərbaycan qadınlarını xilas etməyi bacarır.

Məmməd Səid Ordubadi “Qılınc və qələm” romanında toxunduğu aktual məsələlərdən biri də ana dili problemi olmuşdur. Yenə də bu məsələ Nizami obrazı vasitəsilə ön plana çəkilmişdir. Əsərdə bəhs olunan dövrdə məhz saray mühitində ərəb və fars dilini daha yüksək dəyərləndirirdilər. Xalqın əsas dili olan Azərbaycan dilini isə ancaq adi danışıq üçün istifadəsinin uyğun olduğunu vurğulayırdılar. Gənc şair Nizami isə xalqın dilin müdafiəçisi olduğunu deyir və öz şeirlərini xalqın dilində yazırdı. Əsərdə Nizaminin dilindən verilən bir parçaya diqqət yetirsək, bunu aydın görə bilərik: “Öz dilində şeiri olmayan bir xalqın nəyi ola bilər? Bir xalqın dil mədəniyyətini yaradan

onun ədəbiyyatıdır. Şair həm şairdir, həm də öz xalqı danışan dilin müdafiəçisi, dilin varlığını qoruyan əsgərdir" [33, s.35]. Hətta əsərdə yazılan şeirlərin saray əhlinə uyğun olaraq xalqın dili olan Azərbaycan dilində yazılmamasını əsas gətirirdilər. Bu fikrində əsassız olduğunu Nizami ciddi şəkildə öz cavabları ilə vurğulayır: "Şair adlanan kimsə şeir yazdığı zaman onun xaqanları və padşahlar sarayının yüksək hasarlarını aşa bilib-bilməyəcəyi barəsində heç də düşünmür. Çünki şeir yalnız uca hasarlar içərisində qapanan beş nəfər üçün yox, minlər üçün yazılır. Fars dilində yazmaq məsələsinə gəldikdə isə mən ancaq bunu deyə bilərəm ki, hərgah xaqanlar və saraydakılar bizim əsərlərimizi oxumaq istərlərsə, biz yerli dildə yazılan əsərlərimizi fars dilinə tərcümə edə bilərik" [33, s.36].

"Qılınc və Qələm" tarixi romanı Məmməd Səid Ordubadi yaradıcılığında tarixi dövrlərin müasirliklə əlaqələndirilməsi ilə özündə aktual məsələləri əks etdirən dəyərli və əvəzsiz bir əsərdir. Bu əsərlə Nizami obrazı konteksində işıqlandırılmış məsələlər oxucu yaddaşında silinməz iz buraxır. Müəllif özünün yazdığına görə, bu əsər üzərində 1939-cu ildən işləməyə başlamışdır. Müəllif uzaq keçmişdən bəhs edən bu möhtəşəm romanı yazmaq üçün ciddi hazırlıq işləri görmüşdür. Əsər külli miqdarda (300-dən artıq) tarixi, elmi, ədəbi məxəzə istinadən yazılmışdır və əsərdə istinad olunan tarixi, elmi məxəzlər qeyd olunmuşdur. Nəticə etibarilə, "Qılınc və qələm" romanı Azərbaycan ədəbiyyatında tarixi roman janrının nümunəsi olaraq dəyərli və əvəzedilməz bir mənbədir.

Məmməd Səid Ordubadinin tarixi roman janrına müraciət etməsi səbəbsiz deyildi. Görkəmli yazıçının bu janra müraciətini onun Şərq tarixini mükəmməl bilməsi, ərəb və fars dillərinə olan dərin marağı ilə izah edə bilərik. Belə maraqlardan irəli gələn araşdırmalarla Məmməd Səid Ordubadi tarixin qədim qaynaqlarına müraciət edirdi və bu məlumatları oxuculara öz əsərləri ilə çatdırırdı. Bundan başqa bu janrın Ordubadi yaradıcılığında inkişafı yaşadığı dövrün hadisələri ilə də əlaqələndirilir. Həm İranda baş verən hadisələr, həm də Azərbaycanda baş verən hadisələr onun bədii yaradıcılığının

əsas materialını təşkil edirdi. Məmməd Səid Ordubadi yaradıcılığında tarixi mövzular nəsr əsərləri ilə yanaşı dram əsərlərində də geniş əks olunub.

Sovet dövrü ədəbiyyatşünaslığının dəyərli nümunələrindən biri olan "Gizli Bakı" romanında Məmməd Səid Ordubadi bolşevik partiyasından bəhs edib. Roman ümumilikdə 1857-1919-cu illərdə bu partiyanın Bakıdakı fəaliyyətini əhatəli öyrənmək üçün dəyərli mənbədir. Əsrin əvvəlində Bakıda baş verən inqilablar Məmməd Səid Ordubadinin daim diqqətində olmuş və bu hadisələrlə bağlı olaraq "Gizli Bakı" romanın qələmə almışdır. Əsərin bolşevik ideologiyasının təsiri ilə yazılması dövrün əsas tarixi məsələlərinin geri planda qalmasına səbəb olmuşdur. Romanda bolşeviklərin inqilabi hərəkatından bəhs edilib və bundan kənar mövzular işlənməmişdir. Romanın bu cür təsvir edilməsi dövrün təsirindən irəli gələn tələblərlə bağlı idi. İstər ədəbiyyatda, istərsə də digər incəsənət sahələrində konkret olaraq müəyyən bir ideyanın təbliği üzrə hərəkət edilməli idi. Bu ideya Lenin təlimini əsas götürməklə xalqın əsl tarixi keçmişini təhrif edilmiş formada göstərmək idi. Məmməd Səid Ordubadi də dövrün bu dar çərçivəsindən çıxmamaqla ilk inqilabi romanı yazdı. Romanda daim mübarizədə olan fəhlə sinfi və burjuaziyanın təsviri əsas yer tutur. Fəhlə sinfi ağır həyat şəraitində yaşadığının təsvirini romanda qeyd olunan bu hissə ilə göstərmək olar: "Bütün gününü bir girvənkə çörəyə satmaq istəyən İran kəndlisi qoyun sürüsü kimi Bakıya tökülür. Onlar nə iş saatı, nə maaş az-çoxluğu, nə zəhmət şəraiti anlayan adamlardır" [32, s.9].

Romanda yazıçının yaratdığı fəhlə obrazları xüsusi plan üzrə dəqiq şəkildə yaradılmış və inqilabi hərəkata qoşulmaları belə dövrün tələb etdiyi xətt üzrə davam edir. Əsərdə azərbaycanlı fəhlə obrazları çox zəif formada göstərilib. Hətta inqilabi hərəkatda belə rolları yox dərəcəsindədir. Bütün təsvirlərin bu formada seçilməsi də dövrə görə olduqca məntiqli idi. Əsərdə Əlimərdan bəy Topçubaşov kimi böyük ideallarn carçısı adi şəkildə yüksək təbəqənin bir fərdi kimi göstərilib. Əsərin əsas obrazları arasında Hacı Zeynalabdin Tağıyev xüsusi yer tutur. Bildiyimiz kimi, Hacı Zeynalabdin Tağıyev sadəcə böyük sərvətə malik biri kimi deyil, həmçinin xeyriyyəçilik fəaliyyəti ilə yaddaşlarda dərin kök salan bir şəxsiyyətdir. Hacı Zeynalabdin Tağıyev

həm mühüm problemlərin həllində iştirak edir, həm də irəli sürülən təkliflərin həyata keçirilməsində maddi yardım göstərirdi. Tağıyevin təşəbbüsü və birbaşa iştirakı ilə Bakıda ilk teatr binası tikilmiş, dəmir yolu işə salınmışdır. Onun fəaliyyətinin ən dəyərli təşəbbüsü isə Bakıda Qız məktəbini açdırması və azərbaycanlı qızların təhsilə cəlb etməsi olub. Amma dəyərli şəxsiyyətin etdiyi bu qədər xeyirli işlərin heç biri romanda işıqlandırılmayıb. Məmməd Səid Ordubadi Tağıyevin obrazını yaradarkən ona da adi kapitalist kimi yanaşmışdır. Bunun da səbəbi yuxarıda da qeyd etdiyimiz kimi, irəli sürülən çərçivələrdən heç cürə kənara çıxılmaması idi. Eyni şəkildə digər bir Bakı milyonçusu olan Musa Nağıyevin də bədii obrazı onun fəaliyyətinə toxunulmadan mənfi planda təsvirinə yer ayrılıb.

Məmməd Səid Ordubadi nəsr yaradıcılığında tarixilik prinsipindən bəhərələnsə də, təxəyyülündən gələn ideyaları da xüsusi olaraq vurğulamağı qarşısına bir məqsəd olaraq qoymuşdur. Ümumiyyətlə, qeyd edə bilərik ki, tarixi məqamların əsərlərə gətirilməsi bir ideya olaraq əsas olsa da metod olaraq bədii yaradıcılıqdan geniş istifadə olunur. Tarixilik prinsipinin daha dəqiq izahı akademik, xalq yazıçısı Mirzə İbrahimov tərəfindən belə izah edilmişdir: “Tarixi şəxsiyyətlər necə göstərilməlidir məsələsi ətrafında danışmaq lazım və vacibdir. Çünki burada səhnə üçün, teatr üçün iki təhlükə və fəlakətlə nəticələnə biləcək iki cəhət vardır: bunlardan biri dramı müəyyən edən tarixi şəxsiyyətin tərcümeyi- halını və başına gələn hadisələri nağıl edəcək bir aparata çevirmək qorxusudur. Bu qorxu sənətin xüsusiyyətini məhv edən, sənətkarı maşına çevirən, onun yaradıcılıq təşəbbüslərini öldürə bilən bir təhlükədir” [22, s.30-31].

## 1.2. “Qanlı sənələr” romanında erməni xislətinin ifadəsi və müasir yanaşmada erməni xisləti.

Məmməd Səid Ordubadinin yaradıcılığa başladığı illər siyasi və iqtisadi baxımdan gərgin vəziyyətdə olan Rusiya imperiyasının böhranlı vaxtına təsadüf edirdi. Məhz bu illər tarixə Cənubi Qafqazda milli qırğınlar baş verən illər kimi həkk olunub. Bu dövrdə

- XIX əsrin sonu XX əsrin əvvələrində Osmanlı imperiyasında olan ermənilər öz dövlətlərini qurmaq xülyasına düşşələr də, puça çıxan bu düşüncələrin sonunda onlar Cənubi Qafqaza köçməyə başlayırlar. Bununla da artıq ermənilərin öz boş xəyallarının gerçəkləşə biləcəyinə dair yeni düşüncələri yaranır. Cənubi Qafqazda ermənilər müsəlmanlara qarşı qırğınlara başlayır və öz gizli təşkilatlarını yaradır.

Məmməd Səid Ordubadi bu dövrdə baş verən hadisələrin canlı şahidi olmuşdur və yaradıcılığında bu məsələlərə toxunmadan keçməmişdir. Məmməd Səid Ordubadi mətbuatda yazılan əsassız fikirlərə, atılan böhtanlara bir ziyalı kimi biganə qalmır. Yazıçı gələcək üçün erməni xislətində olan pislikləri göstərərək və baş verən bütün hadisələrə obyektiv yanaşaraq "Qanlı sənələr" romanını yazmışdır. XX ərin görkəmli Azərbaycan yazıçısı olan Məmməd Səid Ordubadi "Qanlı sənələr" adlı romanında 1905-1906-cı illərdə ermənilərin Cənubi Qafqazda törətdikləri qanlı hadisələrdən bəhs edir. Roman dəqiq tarixi məlumatlar və faktlar vasitəsilə qələmə alınmışdır. Əsərdə əks olunan hadisələrə keçməzdən əvvəl romanın yazılması haqqında belə məlumat əks olunub: "Bunu da hamı bilməlidir ki, dəfələrlə "İrşad" və "Tazə həyat" qəzetləri vasitəsi ilə ətraf müxbirlərdən məlumat tələb etdiyim vaxt qərəzsiz və bitərəfanə bir şəkildə yazmalarını təmənna etmişdim. Yenə məlumat almaq arzusu ilə mühərrirlərə, qələm sahiblərinə məxsusi məktublar göndərib, iğtişaş günlərində məhəlli hökumətin hər iki tərəf barəsindəki rəftarını soruşmuşdum. Mən çox fəxr edirəm ki, hər cür fitnəkar məqsədlərdən uzaq, hər növ şəxsiqərəzlikdən kənar olan məktublar alıb bu məcmuədə dərc etdim" [ 37,s.13]. Əsərin əvvəlində verilən bu məlumatdan sonra Məmməd Səid Ordubadinin məhz bu əsəri iki il ərzində yazdığı və bunun üçün 245 məktubdan istifadə etdiyi qeyd olunur: "Məmməd Səid Ordubadinin mətbuat vasitəsilə müraciətindən sonra ona 245 məktub yetişmiş və bu məktublar saf-cürük edilərək, məzmununa xələl yetirilmədən, yalnız tarixin və yazıçının üslubuna müvafiq bir dilə çevrilmişdir" [37, s.12]

Məmməd Səid Ordubadinin "Qanlı sənələr" romanında yazıçının bu ağrılı, faciəli hadisələri qələmə alarkən keçirdiyi hisslər əsərdə belə ifadə olunub: "Bu olmuş tarixi

vücuda gətirmək üzrə qələmi əlimə aldığım zaman özümdə bir kədər, bir müsibət xatirələri hiss edirəm. ...Əlimdəki qələm hər zaman qanlı illərdə baş verən faciələri yazmaq istəyir, vicdanım da bu ülvi vəzifəni ifa etməkdə qeyri-adi bir həvəs göstərir. Zəif duyğularıma gəldikdə qanlı illərdə ucalmış fəryad və məzlumların maddi və mənəvi təsirindən irəli gələn, dözülməsi mümkün olmayan bir hala təsadüf edib özünü böyləcə davamdan məhrum buraxır" [ 37,s.11].

Məmməd Səid Ordubadi bu əsəri yazarkən məhz bu qanlı hadisələrin baş vermə səbəblərini də izah etmişdir. Yazıçı əsərdə dörd səbəb qeyd edib və bu səbəblər birdən dördə qədər bir sıralamada göstərib: Onun fikrincə, bu səbəblərin içərisində birinci yerdə Daşnaksütyun partiyasının fəaliyyəti dururdu. O, yazırdı: "Birinci səbəb erməni Daşnaksütyun komitəsinin müstəbid bir idarə üsulunu təşkil etdiyidir ki, Qafqazda bir sıra qanlı teatrolar oynandı. ...2-ci səbəb məhəlli hökumət məmurlarının müharibə zamanlarında etinasızlığıdır. Böyük Rusiya inqilabına görə mərkəzi hökumətin başı özünə qarışdığından xırda məmurlar özbaşınalığa üz qoyub erməni-müsəlman iğtişaşlarının sakitləşməsi üçün bir tədbirdə bulunmadılar. Bulundularsa da, ermənilərin terrorları qorxusundan bir tərəfi əldə saxlayıb, digər tərəfə növbənöv vicdansızlıqlar etməkdə idilər" [37,s.14-16].

Məmməd Səid Ordubadi hadisələrin üçüncü səbəbi kimi müsəlmanların elmsizliyini və müasir işlərdən bixəbər olmalarını göstərir və yazır ki, "...Bakı faciəsindən sonra erməni-müsəlman hadisələrinin bu qədər uzanmasına səbəb müsəlmanların elmsizliyidir, digər bir səbəb var isə, o da müsəlmanların silahsız və müasir işlərdən xəbərsizliyidir" [37,s.16-17]. Müəllif daha sonra yazır: "Dördüncü səbəbə gəldikdə isə ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmalarıdır. Bu səbəbiyyəti isbat etmək üçün qələmə bir o qədər güc sərf etmək lazım deyil. Zira, ermənilərin hər ayın başı Londona, Parisə, Amerikaya qaçıb ərzi-hal etmələri bunlara kamil bir sübutdur. İngiltərənin verdiyi proqrama uyğun olaraq Türkiyədə muxtariyyət idarə həvəsində bir xeyli çalışdılar. Nəhayət, erməni qırğını Sasun, Zeytun, Van faciələri düşəndən sonra İngiltərəyə bir də müraciət etməyə məcbur oldular. İngiltərə isə son dəfə

olaraq “Britaniyanın hərbi gəmiləri Türkiyənin Anadolu dağlarında cövlandan acizdir, nə yapayım,” – deməklə erməniləri Türkiyədə idarə muxtariyyəti həvəsindən bir növ düşürdü. İngiltərədən naümid olan ermənilər qırğından sonra katalikos Mkrtıç cənablarını Berlinə, yəni Almaniyaya göndərməyə məcbur oldular. Mkrtıç cənabları Almaniya kabinəsindən “indi qılınc zamanıdır” sifarişini ermənilərə yetirən kimi ermənilər Türkiyədə münəzzəm bir Daşnaksütyun partiyası təşkil və tənzim etdilər” [37,s.17-18].

Əsər ümumilikdə müsəlmanların (Azərbaycan xalqının) başına gətirilən qırğınlardan danışır, hansı ki baş verən bütün hadisələr faktlar şəklində öz əsasını tapmışdır. Tarixin bir çox dövrlərinə nəzər onu göstərir ki, təcavüzkar ermənilər qana doymayan, əli silahsız xalqa zülm etməkdən çəkinməyən vəhşi millət olublar. Məhz Məmməd Səid Ordubadinin bu romanında da əks olunan məlumatlar bunu açıq-aşkar göstərir. Ermənilər – onların xislətində olan və heç vaxt silinməyən qəddarlıq əsərdə də bir çox məqamda qarşımıza çıxır. Əli silahsız insanlara hücum, qoca, qadın, uşaq demədən hər kəsin qətl edilməsi, kəndlərin yandırılması bunun ən bariz göstəricidir. Amma müsəlmanlar hər zaman insafla hərəkət etməyi bacaran olublar və “düşmənin də mərdi yaxşıdır” deyə söylənilən ifadə burada öz əksini tapmışdır: “Deyilənlərdən məlum olur ki, iki qanlı camaat bir-birinin öhdəsinə buraxılmışdı. Amma burasını da deməliyik ki, müsəlmanlar insafı əldən buraxmayaraq hər tərəfdə erməniləri hifz edir, evlərində saxlayıb yemək-içməklərini verirdilər” [37,s.23].

Romanda demək olar ki, hər səhifədə ermənilərin insanlıqdan kənar hərəkətləri qeyd edilib. Erməni vəhşilərinin hər yeri yandırması, heç bir mədəni-mənəvi irsə hörmət etmədən vəhşicəsinə aparılan döyüşləri hər zaman acı nəticələrlə sonlandırılıb: “Ermənilər hər tərəfdən kəndə od vurdular. Bir sıra müqəddəs əşyalar, Quran kitabı və başqa bu kimi əşyalarda yandırıldı....” [37,s.50].

Ermənilərin xislətində olan qəddar ruhun ifadəsi yoxdur. Onların insanlığı yoxdur. Onların sadəqət anlayışı yoxdur. Bu fikirlərin ümumi ifadəsi əsərin bu yerində verilən bir cümlə ilə göstərmək olar. “...Erməni qonşular kəndi dağıdıb hər tərəfini yandırdılar,

kənardan durub tamaşa edən bir müsəlman mülahizəsinə görə il uzunu bir evdə çörək yeyib çay içmiş erməni qonşu həmən evi hamıdan qabaq yandırmağa səy göstərib" [37,s.56-57].

Bir xalq nə olursa olsun o öz humanistliyini, dürüstlüyünü, insafını qorumağı bacarırsa, deməli o xalq mərd oğul və qızlara sahibdir. Biz bu xalqın nümayəndələrini "Qanlı sənələr" romanında aydın şəkildə gördük. Müsəlmanların ermənilərə qarşı münasibəti onların heç bir vaxt insafını itirmədiyinin göstəricisidir. Hansı ki, biz bunu əsaslandırmaq üçün əsərdən bu hissəni qeyd edə bilərik: "...Bizim şəriətdə müdafiə məsələsi vacibdir. Ona görə də qorxunu, ağciyərliyi qəlbinizə qoymayınız. ..Ar olsun o əsgərə ki, düşmən xəncərini arxasından qəbul edə. Müharibədə insafınızı itirməyib silah işlətməyən körpələrə, qoca kişilərə rəhm ediniz! Körpə uşaqlara, erməni hərəmlərinə heç zaman təhqirlə əl uzadıb, əzab-əziyyət rəva görməyəsiniz!" [37,s.66-67].

Tarixə nəzər salsaq görərik ki, erməni xislətindəki qəddarlıq heç bir xalqda olmamışdır. "Qanlı sənələr" romanında bu qəddarlığın acı təzahürünü özündə cəmləşdirib. Romanda Bakı faciələri, Naxçıvan hadisələri, İrəvan hadisələri, Cəbrayıl hadisələri, ağrılı Şuşa faciəsi, Gəncə hadisələri, ağrılı Qatar hadisələri, Cavanşir uzeydində baş verən hadisələr haqqında faktlara əsaslanaraq məlumat verilib. Bu hadisələrin hər birində törədilən faciələr göstərilib. Romanın bir yerində hətta bu vəhşiliyin oxucuya belə ötürülməsinin nə qədər ağrılı, acılı olacağını yazıçı bu şəkildə qeyd verməklə göstərib: "Hörmətli müxbirimizin göndərdiyi Cavanşir əhvalatının arasında ürək sıxan Ümidli facisəini layiqincə oxuyub istifadə edə bilmədim. Zira, bəzi sətirləri, guya su tökülüb, bütünlükdə qaralanmışdı. Ona görə Ümidli əhvalatı müxtəsərcə yazılır. Mənim zənnimcə, bu səhifələrə su tökülməyibdir. Ancaq hörmətli müxbir Ümidlidə alçaldılan xanım-bacıların ağrılı faciəli hallarına davam gətirə bilməyib bu müsibəti ağlaya-ağlaya yazdığından böyləcə qaralmışdır. Mən isə o səhifələrin üstündən ağlaya-ağlaya keçib hörmətli oxucuların da ağlamasına razı olmadım" [37,s.115].

Hər bir xalq öz mədəniyyətinin göstəricisidir, onun ifadə şəklidir. Biz də "Qanlı sənələr" romanında erməni mədəniyyəti ilə tanış olduq, hansı ki, bu mədəniyyət antihumanist düşüncələr timsalında özünü göstərirdi. Bir xalq ki, müharibədə olan əli silahsız insana təcavüzkar yanaşırsa, onda nə mədəniyyət axtarmaq olar.

Romanda toxunulan bir çox məsələlər var ki, bunlardan biridə tez-tez danışılan sülh məsələsi idi. Bu sülhün qəbul olunması ilə pozulması da o qədər çəkmirdi. Sülhü pozan tərəf də hər zaman erməni tərəfi olurdu. Onlar ya iğtişaş yaradır, ya da bir müsəlmanı qətl edirdilər. Bununla da öz xülyalarının reallaşmasını gözləyirdilər. Ermənilərin ortaya atdığı məsələlər isə öz həllini tapa bilmirdi. Çünki bu təkliflər ancaq onların xislətindəki vəhşiliyə xidmət edirdi. Romanda qaldırılan məsələlərdən biridə köç məsələsi idi. Məhz bu məsələdə ermənilərin məqsədi müsəlmanların geriləməsi və qırılıb yox olması idi: "Cənab Kalantarın niyyəti ermənilərin malları,qoyunları yatıb, pisliklərini sulara töküb, aşağıda olan müsəlmanların da yayın istisində həmin sulardan içib yavaş-yavaş qırılıb qurtarmasıdır" [37,s.145].

Məmməd Səid Ordubadi  dövrün aktual problemlərini, qəlbləri tidrədəcək məsələləri, cəmiyyətdə olan inkişafı öz əsərlərində göstərən, yeniliyə xüsusi yanaşan, gənc nəsli milli ruhdan uzaqlaşdırmayan bir sənətkar idi. "Qanlı Sənələr" romanında da toxunduğu erməni-müsəlman hadisələrinə tarixi yanaşma öz əksini tapıb. Müasir dövrdə də erməni xislətinin dəyişməyən vəhşiliyini bir daha yaşayaraq gördük. Romanda qeyd etdiyimiz bir çox məsələlərin təkrarən şahidi olduq. Dəyişməyən erməni xislətindəki qəddarlıq romanda göstərilən kimi  istər  I Qarabağ Müharibəsi zamanında, istərsə də II Qarabağ müharibəsində - Vətən müharibəsində özünü göstərdi. Müasirlik prinsipi ilə yanaşaraq Məmməd Səid Ordubadinin romanında əks etdirdiyi erməni təcavüzünü II Qarabağ müharibəsində ermənilərin antihumanist davranışları ilə əlaqəli göstərmək olar. Ermənilərin  II Qarabağ müharibəsində törətdiyi bu dəhşətli soyqırım hadisələri yenidən bütün dünyaya onların bəşəri və insani dəyərlərinin olmadığını göstərdi. Gəncə, Bərdə və Tərtər hadisələri, bunlarla yanaşı cəhd etdikləri başqa addımların onların müharibəyə qatılacaq nüfuzlarının olmadığını və bu kimi yollara əl ataraq nüfuzlarını yüksəltməyə

çalışdıqlarının göstəricisi idi. Gəncə hadisələri 2020-ci il 4 oktyabr tarixində başlayır və bu ilk cəhd ermənilərin insanlıqdan uzaq olduqlarının bariz sübutu idi. Müharibə olmayan bölgənin atəşə tutulması erməni faşizminin iç üzünün açılması idi. Bu qəddar addımların atılmasına azərbaycanlıların layiqli cavabı isə döyüş meydanında verilirdi. Gəncənin ilk dəfə ağır artilleriya atəşinə tutulması nəticəsində bir nəfər şəhid və otuzdan çox yaralı oldu. Müharibə meydanından kənar edilən ikinci hücum 5 oktyabrda oldu və bunun nəticəsində yenə də əli silahsız mülki şəxslər yaralandı. Ermənilər Gəncə şəhərini beş dəfə ağır qurğularla atəşə tutmuşdur. Bu təcavüz nəticəsində şəhid və yaralıların sayı xeyli artmış, hətta yaralılar arasında azyaşlı uşaqlar da olmuşdur. Oktaybr ayının 4,5,8,11,17 tarixləri Vətən müharibəsində yaşanılan acı günlərdən idi. Bu soyqırımın törədilməsi erməni xislətinin illər keçsə də dəyişməyən vəhşiliyin müasir dövrümüzdə yenidən görməyimizə səbəb oldu. Mənfur düşmənin insan qanına doymayan vücudu növbəti qəddar addım atmağa vadar etdi. Bunun nəticəsində döyüş zonasından kənarda yerləşən Bərdə şəhəri raket atəşinə tutuldu. Müharibə meydanından kənarda bu cür təxribatların törədilməsi düşmənin beynəlxalq hüquq normalarını və prinsiplərini heçə sayması demək idi. Törədilən bütün terror aktlarına layiqli cavabı Azərbaycan ordusu döyüş meydanında verdi. Azərbaycan ərazi bütövlüyünü təmin etmək üçün döyüş meydanında rəşadətlə vuruşduğu kimi, həmçinin sülh və sabitliyin qorunması üçün də mübarizə aparırdı. Bütün dünya buna şahidi oldu ki, ermənilər bir xalq olaraq sülh yox, terror və işğalı üstün tuturlar.

Qarabağ münaqişəsi artıq geridə qalıb və 44 gün davam edən Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 30 il işğal altında qalmış torpaqlarımızı azad etməklə haqqın, ədalətin bərqərar edildiyini bütün dünyaya sübut etmiş oldu. “Qanlı sənələr” romanında qeyd etdiyim erməni xislətinin dəyişməyən vəhşiliyi müasir dövrümüzdə də bir daha şahid olmağımıza səbəb oldu. Tarix boyu ermənilərin törətdikləri amansız soyqırımların şahidi olmuşuq. Onların törətdikləri bu soyqırımların, terrorların sayı hesabı yoxdur. Tarixin bütün dövrlərində ermənilərin türklərə qarşı olan nifrəti öz əksini tapıb. Bu nifrət, kin o

qədər amansız idi ki, illər onun azalmasına yox daha da artıb böyüməsinə səbəb olurdu. Dəyişməyən xislət, dəyişməyən erməni təfəkkürü onları hər yola əl atmağa vadar edirdi. Başqa xalqlara qarşı törədilən vəhşiliklər, başqalarının torpğını işğal etmək, digər xalqların mədəniyyətini, incəsənətini, adət-ənələrini oğurlayaraq özününküləşdirmək erməni millətinin dəyişilməz təfəkkürünə bariz nümunədir. Hər pis işə əl atan ermənilər Azərbaycan xalqına qarşı açıq şəkildə qırğın törətməkdən çəkinmirdi. Ermənilərin bu çirkin siyasətlərinin altında azərbaycanlılara qarşı hər zaman etnik təmizləmə olmuşdur. Bu fikri irəli sürməkdə bir çox əsaslar olub. İlk olaraq, 1992-ci ildə Xocalıda baş verən qətliam bunu deməyə əsas verir. 1992-ci ildə Xocalıda olduğu kimi, 2020-ci ildə Böyük vətən müharibəsi zamanı Gəncə, Bərdə, Tərtər və digər şəhərlərin qadağan olunmuş artilleriyadan raket atəşinə tutulması və nəticədə əli silahsız, dinc insanların ölümü ermənilərin xislətinin dəyişmədiyini açıq açkar nümayiş etdirir.

Məmməd Səid Ordubadi yaradıcılığında xüsusi əhəmiyyətli romanlardan biri olan “Qanlı sənələr” əsəri erməni terrorunun niyyətini göstərmək baxımından da olduqca vacibdir. Ermənilər xalq arasında elə insanları hədəfə alırdılar ki, həmin şəxslər xalq üçün, xalqın irəli getməsi üçün olduqca dəyərli şəxsiyyətlər idi. Onların əqidələrinə qarşı olan insanları aradan qaldırmaq ermənilərin ən əsas mübarizə üsulu idi. Belə addımların atılması onların gerçəkləşməyəcək məqsədlərinə çatmaları üçün ən asan və bir o qədər də əlverişli yol idi. Bu cür yollara əl atmaqla xalqın mübarizə əzmini qırır və bundan istifadə edib yeni münaqişələr yaratmağı planlayırdılar. Yaranan münaqişələrdə isə daima özlərinə haqq qazandıran ermənilər müsəlmanları vəhşi və qaniçən kimi qələmə verməyi əsas amal seçmişdilər. Məmməd Səid Ordubadinin “Qanlı sənələr” romanında da ermənilərin bu istəkləri işıqlandırılıb. Romanda “Vətən Fəryadnaməsi” adlı hissə 1905-ci ilin avqust ayının 29-da xain ermənilər tərəfindən Batumda vəhşicəsinə qətl edilən tanınmış vəkil Məhəmmədqulu bəy Kəngərli haqqındadır. Məhəmmədqulu bəy Kəngərli öz düşüncələri və yüksək intelekti ilə seçilən bir insan idi. O,türklərin milli maraqlarının müdafiəçisi və daim onların tərəfində dayanan xalqın ən yardımsevər oğlu idi. “Qanlı sənələr” romanından gətirilən bu nümunədə Məhəmmədqulu bəy Kəngərlinin

ölümünü xalqın necə ürək ağrısı ilə qarşıladığının göstəricidir: “1905-ci il miladi. Avqust ayının 29-da Batum şəhərində məşhur Məhəmmədqulu bəy Kəngərlinin erməni komitəsi tərəfindən göndərilən vəhşi terrorçular əlində şəhid edildiyini eşidib ağlamayan qafqazlı bir müsəlman yox kimidir, zənn edirəm” [37,s.97].

Romanda öz əksini tapan bu qəhrəman Məmməd Səid Ordubadinin xəyalən yaratdığı obraz deyil. Məhəmmədqulu bəy Kəngərli realda yaşamış bir şəxsiyyət idi. Yazıçı əsərində real faktlara əsaslanan məlumatları da qeyd edib.

Məhəmmədqulu bəy Kəngərli ermənilərin məqsədinə çatmaları üçün seçdikləri ən əhəmiyyətli hədəf idi desək yanılmarıq. Bir daha vurğulayaq ki, Məhəmmədqulu bəy Kəngərli qədim Kəngərli tayfasının nümayəndəsi idi. O, əsilzadə bir bəy idi, Tiflis hərbi məktəbində, sonra isə Peterburq Mixaylovski Ali Hərbi Topçu Məktəbində zabit təhsili almışdı, vəkillik hüququ qazanmış və hər zaman millətinin hüquqlarını ən ali kürsülərdə müdafiə edirdi. Başqa bir xidməti isə imkansız uşaqlar üçün Qafqazda ilk dəfə pansion açması olur. Məhəmmədqulu bəy Kəngərli burada dəyərli bir pedoqoq kimi tanınır. Romanda qeyd olunan məlumatlara əsasən bu qənaətə gəlinir ki, Məhəmmədqulu bəy Kəngərli çox xeyirxah insan olmuşdur. O, gəlirinin aşağı olmasına baxmayaraq daima millətinə əl tutmuşdur. Xeyirxahlığı onun yoxsul müsəlmanlara pulsuz ərizələr yazmasında, xəstə insanlara pulsuz dərmanlar almasında görünürdü. Çox işi olsa belə Məhəmmədqulu bəy xalqın xeyir-şərinə qatılar və əlindən gələn qədəri ilə xalqa maddi köməklik göstərərdi. Ən dəyərli yardım üsulu isə öyrəndiyi biliklərini cahillərə ötürməsi idi.

Məhəmmədqulu bəy Kəngərlinin belə xarakterə malik olması ermənilərin onun hədəf seçməsinin bariz göstəricidir. Bundan savayı ermənilərin onu qətl etməsində ən başlıca səbəblərdən biri erməni iğtişaşlarının əsl mahiyyətini hökümət orqanlarına bildirməsi olub. Məmməd Səid Ordubadi bu atılan addımın ermənilər üçün xoş olmadığını və buna görə də xalqı üçün əvəzsiz xidməti olan insanın ermənilər tərəfindən ölüm hökmünün rəva görülməsini əsərində belə təsvir etmişdir: “Mərhumun ali xahişi

məhz Qafqazyada təkcə rəhbərlik və böyüklük edən ermənilərə xoş gəlmədi. Ölüm kağızları yazdılar. Öldürmək, şəhid etmək xəyalına düşdülər” [37,s.101].

Məmməd Səid Ordubadinin romanında vurğuladığı faktlara əsasən öyrənirik ki, Məhəmmədqulu bəy Kəngərli əvvəl-axır öldürüləcəyini bilsə də, öz mübarizəsini davam etdirməyə çalışırdı. Xalqı üçün hər cür mübarizəyə hazır olan bu vətənsevər şəxs mühacirət etməyə məcbur olur. O, vətənini tərk etmək üçün Parisə bilet alsa da sui-qəsd nəticəsində həyatını itirir. Məmməd Səid Ordubadi onun ölməsi ilə bağlı məlumatı əsərində bu şəkildə qeyd edib: “Erməni komitəsi tərəfindən göndərilmiş üç nəfər alçaq erməni gizləndikləri divarın dalından çıxıb qəflətən o millət fədakarını xəncərlə parça-parça doğrayıb qaçdılar. .... bu millət gözünün işığı hələ 41 yaşında ikən bir neçə xain alçağın xəncəri ilə doğrandı.” [37,s.101-102].

Bu hadisədən sonra Məhəmmədqulu bəy Kəngərlinin cəsədi Batumdan onun sevdikləri, xalqının dəstəyi ilə Tiflisə gətirilir və burada dəfn olunur. Ermənilərin törətdikləri bu vəhşi qətl hadisəsi xalqı ruhdan salmır, xalq belə hadisələrdən sonra daha da birliyə can atır və belə dəyərli şəxsiyyətlərin mübarizəsini davam etdirməyə çalışırlar.

Məmməd Səid Ordubadinin “Qanlı sənələr” romanında təsvir etdiyi hadisələr sanki əvvəlki illərdə baş verən hadisələr deyil, son bir neçə ildə Azərbaycan xalqının yaşadığı müsibətlərdir. Yazıçının öz yaşadığı mühitdə şahidi olduğu tarixi hadisələrin yenidən təkrarlanması ermənilərin seçdikləri yolun heç bir zaman dəyişməyəcəyinin göstəricisi idi. “Qanlı sənələr” romanı oxuculara öz tarixi keçmişlərini bir daha diqqətdən keçirmələri üçün bu günümüzə ötürülən əvəzsiz mənbədir.

“Qanlı sənələr” romanında Qazax hadisələrinin də müsəlmanların yeniliklərdən xəbərsiz olduqları üçün başlarına gələn işlər təsvir olunub. Romanın bu hissəsində Qazax mahalı və onun kəndləri barədə məlumat verilir. Bu kəndlərdə ermənilərin törətdiyi təxribatlar, müsəlmanların mübarizə əzmi geniş planda öz əksini tapıb. Romanın bu parçasından yola çıxaraq onu qeyd edə bilərik ki, aradan illər keçsə də ermənilərin nə istəkləri azaldı, nə də xislətlərində olan acımasızlıqlar keçib getdi. 1992-ci ildə Qarabağda baş verən müharibənin acı təzahürü Qazax mahalının da kəndlərində

daha da alovlandı. Bu qeyd olunan nümunələr illər ötsə də hər cür inkişaf, yenilik baş versə də dəyişməyən tək şey olduğunu bizə və bütün dünyaya isbat edir: bu da ermənilərin xarakteri məsələsidir , gücləri yetənə  güc gələn, yetməyənə hər cür şər və böhtan atan, insanlıqdan kənar xislət.

"Qanlı Sənələr" romanında etdiyimiz təhlillərdən yola çıxaraq qeyd edə bilərik ki,erməni-müsəlman davası hər bir dövr üçün fərqli şəkildə baş versə də,bununla bağlı yazılan əsərlərin hər birinin yekun nəticəsi eyniyyət təşkil edir.Əsərlərin forma və üslubu fərqli olsada ötürdükləri ideya oxşardır.M.S.Ordubadinin bu romanında da ermənilərin vəhşi xislətinin təsviri xüsusi vurğulanmışdır.

XVIII-XIX əsrlərdə və XX əsrin əvvəllərində Qarabağda baş verən ictimai-siyasi hadisələrin ədəbiyyatımıza təsiri ilə bağlı yekun nəticə olaraq bu fikirləri qeyd edə bilərik: "XIX əsrin axırları və XX əsrin əvvəllərində baş vermiş hadisələr,o cümlədən erməni-müsəlman qırğınları mövzusunda yazılmış bədii və bədii sənədli yaradıcılıq nümunələri janr ,forma,üslub cəhətdən müxtəlif və rəngarəng olsalarda,ideya-məzmun xüsusiyyətlərinə görə yaxın və oxşardırlar.Bu xüsusiyyətləri aşağıdakı şəkildə təsnif etmək mümkündür:

-törədilən qırğınlar çar Rusiyası müstəmləkəçilik siyasətinin və bu siyasətə xidmət edən yerli nökərlərin fitnə-fəsadının nəticəsi və təzahürü kimi qiymətləndirilmişdir;

-bütün bəlaların İrəvan erməni-daşnak yuvasından gəlməsi həqiqəti dərk edilmiş və əks etdirilmişdir;

-heç bir insaniyyətə zidd fikirlərə yol verilmədən milli-ayrı seçkiliyə qarşı ikrah hissi yaradılmış,hər iki tərəf-həm azərbaycanlılar,həm də ermənilər sülhə,dinc birgəyaşayışa dəvət edilmişdir;

-zülm və istibdaddan,milli qırğınlardan nicat yolu mütləqiyyətin devrilməsində görülmüş,Qafqaz xalqları milli azadlıq naminə vuruşa səslənmişdir;

-belə bir mübarizədənin formalaşlamasına mane olan neqativ hallar,ictimai –siyasi amillər tənqid atəşinə tutulmuş,xüsusən də xalqımızın başını qatan erməni-daşnaklarının təxribatçı əməlləri ifşa edilmişdir;

-istər Qarabağda,istərsə də Azərbaycanın digər yerlərində tördilən iğtişaşlar bədnam “erməni məsələsi”nin tərkib hissəsi kimi qiymətləndirilib şərh edilmişdir;

-mövzu vasitəsilə böyük milli problemlər tipikləşdirilmiş,oxuculara demokratik ideyalar,millətə və vətənə məhəbbət ideyası aşılanmışdır.” [26,s.103-104].

## II Fəsil. Məmməd Səid Ordubadi romanlarının bədii xüsusiyyətləri

### 2.1. Məmməd Səid Ordubadinin romanlarında obraz yaradıcılığı

Bədii ədəbiyyat özününün xüsusi məziyyətlərinə görə digər incəsənət növlərindən fərqlənir. Ədəbiyyat hadisələrə yanaşma baxımından dəlillər və sübutlar ilə deyil bədii lövhələri əsas götürür. Yazıçı əsər yazarkən yalnız bədii təxəyyülə əsaslanmaya da bilər. Hər bir sənətkar öz əsərini formalaşdırmaq üçün müxtəlif üsullardan istifadə edərək yeni bir ədəbi nümunə yaradır. Hər bir ədəbi əsərdə özünün obraz yaradıcılığı ilə seçilir. Ədəbiyyatda bədii obraz anlayışı geniş tədqiq edilmişdir. Bədii obraz ümumilikdə insan obrazını da, əşya obrazını da, təbiət obrazını da və başqa mövzuları da əhatə edir. Yazıçı əsərində bəzən insanı yox təbiət təsvirləri və yaxud əşyalardan bədii təsvirdə əsas obraz kimi istifadəyə önəm verir. Bu zaman bədii obraz konteksində təbiət və əşya obrazı formalaşır. Əsərlərə diqqət yetirsək görərik ki, yaradılan əşya və təbiət obrazları bəzən insanla sıx əlaqədə verilir və xarakterik cəhətlərin vuğulanmasında istifadə edilir. Bəzi sənətkarlar isə əsərlərində bu yanaşmadan kənar dayanır və yaratdığı digər obrazları insanla əlaqədə vermir.

Müəllifin öz təxəyyülündən gələn düşüncələr əsasında yaratdığı obraz fərdi obraz adlandırıla bilər. Fərdi obrazda müəllif istedadı əsas götürülür və obrazın yaradılması üçün müəllifin seçdiyi məramlar xüsusi əhəmiyyət kəsb edir. Yazıçı əsərinin fərdi qəhrəmanını yaradarkən onun duyğu və düşüncələrini qabartmaq üçün müxtəlif üsullardan istifadə edir. Əsərlərdə verilən dialoq və monoloqlar obrazın daxili aləmini açmaq üçün əsas yoldur.

Məmməd Səid Ordubadi romanlarında yaratdığı obrazların dəqiq olaraq hansı milləti təmsil etdiyini və hansı koloriti daşıdığını vurğulayır. Tarixi roman janrının əsasını qoyan görkəmli yazıçı bu janrın verdiyi genişlikdən məharətlə istifadə etməyi bacarmışdır. Roman janrı digər janlarla müqayisədə obraz sayına, həmçinin hadisələrin daha geniş miqyasda təsvirinə imkan yaradır. "Hər hansı bir roman ilk növbədə, orada təsvir olunan hadisələrin və obrazların necə təcəssüm olunması ilə müəyyənləşir. Elə roman var ki, orada hadisələrin təsviri ön plandadır, obrazlarda (müsbət olsun, ya mənfi)

bu hadisələr tabe edilir, yəni sırf "hadisə romanı" yaradılır. Elə romanlarda var ki, onları "xarakterlər romanı" kimi səciyyələndirmək olar. Yəni, bu romanlarda hadisələr deyil, obrazlar-onların taleyi aparıcı xətti təşkil edir" [50].

Məmməd Səid Ordubadi də özünün tarixi romanlarında həm tarixi dövrün əks olunmasında, həm də dövrün bəxş etdiyi tarixi şəxsiyyətlərin obrazlarını yaratmaqda bu geniş təsvir üsulundan xeyli faydalanaraq özünün dəyərli ədəbi nümunələrini ərsəyə gətirmişdir. Müəllifin əsərlərində yaratdığı surətlər istər mənfi, istərsə də müsbət olmasına baxmayaraq, onun yaratdığı obrazların hər biri sənətkarlıq baxımından olduqca dəyərlidir.Məmməd Səid Ordubadi nəsrində olan romanları obraz zəngiliyi ilə seçilir. Müəllif əsərlərində yaratdığı əsas qəhrəmanların xarakterik xüsusiyyələrinə bütün incəliklərinə qədər dəqiq yanaşmağı bacarmışdır. Romanlarla tanış olan hər bir oxucu obrazların milliyəti, xarakteri, daxili aləmini çox rahatlıqla öyrənə bilir. Bu istedad isə Ordubadi qələminin gücündən irəli gəlirdi.

Romanlarında yaratdığı qadın obrazları dövrün tələblərinə uyğun və yaxud tələblərdən kənarda belə olsa, olduqca güclü qəhrəmanlardır. İlk olaraq, "Qılınc və Qələm" romanında təsvir olunan qadın qəhrəmanların ədəbi portretləri ilə tanış olaq. "Qılınc və Qələm" əsərində Məmməd Səid Ordubadinin qələmindən çıxan dəyərli şairə Məshəti Gəncəvinin obrazı diqqəti cəlb edir. Məshəti Gəncəvi şairlik ilə məşğul olması, sənətə yüksək dəyər verməsi romanda geniş miqyasda işıqlandırılıb. Buna baxmayaraq, Məhsəti xanım Gəncəvi kimi şairlik fəaliyyətinə düzgün dəyər verməyənlər də olur. Bunun nəticəsində Məhsəti xanımın yaşadığı məhəllə qarət edilir, özünü isə sürgünə yollamağı qərara alırlar. Gəncə hakimi tərəfindən cəzalandırılan Məhsəti Gəncəvinin Əmir İnanca ünvanlandığı rübaidə xüsusi əhəmiyyətə malikdir:

"Dünya bəməsəl çü kuzeyi zərrinəst,
Kəb ab dəru təlx,kəhi şirinəst.
To ğürrə məşov ki,ümri mən cəndinəst,
Çün əsbü əcəl həmişə ziru zinəst" [33,s.23].

Qeyd olunan bu rübaiyə Əmir İnanc tərəfindən heç bir cavab verilmir. Məhsəti xanım bu rübaisini oxumaqla dünyanın hər cür üzünü görməyə hazır olduğunu vurğulayır və qarşılaşdığı bu cür acımasız davranışlara rəğmən yenə də öz fəaliyyətindən uzaqlaşmır. Məhsəti xanım Gəncəvi bir qadın olaraq güclü təsvir olunur. O, sürgünə getsə də yenə məhv olmur və öz fəaliyyətini böyük ustalıqla davam etdirir. Məhsəti xanımın sürgündən qayıtmasında əsas yardımı Nizami göstərir və bu o dövrdə incəsənətə, ədəbiyyata verilən dəyərdən irəli gəlirdi. Hər nə qədər qadınlara qarşı bu cür acımasız yanaşma olsa da müəllif Nizami Gəncəvininin timsalında bu acımasız hərəkətlərə qarşı aparılan mübarizəni də əks etdirməyi bacarmışdır. Məhsəti xanım Nizaminin gərgin mübarizəsi və səyi nəticəsində öz yurduna qayıdır və sürgün həyatı sona çatır. Məmməd Səid Ordubadi yaratdığı XII əsr ədəbiyyatın unudulmaz şairəsi olan Məhsəti Gəncəvi obrazı əsərində təsvir etdiyi güclü qadın obrazlarından sadəcə biridir. Dövrün tələblərinə qarşı öz şeir məclislərini quran və bundan heç bir halda utanmayan dəyərli şairə romanın ilk səhifələrinin əsas motivinin güclü ifadə edilməsində əvəssiz bir obrazdır.

"Qılınc və Qələm" romanında diqqəti çəkən və roman boyu hər hadisənin mərkəzində dayanmağı bacaran əsas qadın qəhrəmanlardan biri də Qətibə idi. "Qətibə XI əsrin birinci yarısında Azərbaycan Atabəylərin siyasi həyatında böyük rol oynamış olan məhşur bir qadın idi." [33,s.39].

Biz saray həyatında baş verə biləcək hər cür hiyləgərliyi Qətibə obrazının ötürdüyü məlumatlarla anlaya bilərik. Qətibə saray mühitində böyüyən və bu mühitin ona aşıladığı bütün mənfilikləri özündə cəmləşdirən romanın əsas qadın obrazlarındandır. Tarixi roman olan "Qılınc və Qələm" romanında Qətibə və onun cariyələri ilə bağlı motivlərin verilməsi müəllif tərəfindən bu əsərə macəra təsviri də qatmışdır. Qətibənin dahi şair Nizamiyə olan məhəbbəti əsərin süjetinin əsasını təşkil edir və bu məhəbbətin baş tutmaması sonrakı dəhşətli hadisələrin yaranmasının ilkin başlanğıcına çevrilir.

Akademik Yavuz Axundlu qeyd etmişdir ki, müəllifin bu sevgi xəttini qələmə alarkən əsas mənbə olaraq təsirləndiyi bir əsər olmuşdur: “Sevgi macəralarını qələmə alarkən müəllif Hüseyn Cavidin “Səyavuş”undakı Südabə-Səyavuş xəttindən bəhrələnməmiş deyil. Hər halda bu cəhətə diqqət edib araşdırmağa dəyər” [3,s.326].

Qətibənin Nizamiyə olan məhəbbəti onun bütün varlığını ələ keçirir. Hətta o, Nizamini özünə aşiq etmək üçün mübarizə belə aparır. Amma Qətibənin bu dərin məhəbbəti uğrunda apardığı mübarizə Nizami tərəfindən heç bir halda cavablandırılmır. Qətibənin şairi hər gördüyü yerdə söhbətə tutması, onun şeirlərindən parçalar söyləməsinin bircə səbəbi var idi ki, bu da Nizaminin diqqətini çəkib onu özünə bağlamaq idi. Şeirə vurğunluq və daima diqqət mərkəzində qalmaq, heç bir zaman unudulmamaq Qətibənin xarakterinin ilkin əlamətləri idi. Qətibənin qəlbinə hakim kəsilən sonsuz məhəbbəti Nizaminin əsl sevdiyi Rənadan xəbər tutduğu vaxta qədər yaşayır. Nizamini özünə düşmən seçməsinin ilkin səbəbi məhz Qətibənin sevgisinə qarşılıq ala bilməməsi və özünü təhqir olunmuş hiss etməsi olur: “... indi o mənim düşmənimdir. Mən ona öz Rənası ilə xoşbəxt yaşamağa imkan verməyəcəyəm. Hətta mümkün olarsa, onu məhv etdirib öldürəcəyəm. Mən nə sevgini, nə də təhqiri unudacağam” [33,s.165].

Uğursuz məhəbbətin Qətibədə yaratdığı intiqam hissi qorxulu hiylələri formalaşdırır. Romanın macəra zəmnində yaranan süjeti də bundan sonra başlanır. Qətibənin özünü təhqir edilmiş hiss etməsi onun xarakterindəki müsbət cəhətlərin mənfilərlə əvəzlənməsinə səbəb olur. Qətibənin Atabəy Məhəmmədlə izdivacı qəbul etməsinin əsl səbəbi də nifrətindən doğan hisslərinə qurban getməsi idi. Məhz bu izdivacla Nizamidən intiqam alacağını düşünürdü. Saray mühitində siyasi hadisələrdə aparıcı mövqedə dayanan Atabəy Məhəmmədlə evlənmək Qətibənin bu mühitin lap dərinliyində hökmranlıq etməsinə şərait yaradırdı. Qətibə obrazının timsalında müəllif sarayda baş verə biləcək hiyləgərlikləri göstərsə də, həmin hiylələrin məhvini isə Nizami, Fəxrəddin kimi mübarizə əzmi ilə yaşayan qəhrəmanların timsalında çatdırmağı bacarıb. Roman boyu Qətibənin qurduğu planlar təsvir edilir və bütün bunlar Qətibənin

Nizamini məhv etməsi üçün atdığı addımları idi. Qətibə obrazının təsvirində müəllif onun güclü tərəflərini göstərməklə yanaşı, zəif xarakterlərini də qeyd edib. Belə ki, intiqam hissi ilə yaşayan bu qadının cariyələrin yalanlarına asanlıqla inanması onun ən zəif xarakteri idi. Biz Qətibənin xarakterindəki zəifliyi Qətibə-Səba xətti vasitəsilə öyrənirik. Səba onun ən yaxın bildiyi cariyəsi olmasına baxmayaraq Qətibəni asanlıqla aldadıb özünə sərvətlər yığırdı.

Məmməd Səid Ordubadinin "Qılınc və Qələm" romanında hadisələrin təsvirində tarixiliklə bədii təxəyyülün inikası məsələsi dayanır. Ordubadi əsərində təsvir etdiyi Canpolad kəndi və bu kəndin güclü qızı Gözəl surəti diqqət çəkir. Müəllif romana bu hissəni daxil etməklə sanki fərqli şəraitdə qurula biləcək bir cəmiyyət ideyasını ötürmək istəyib. Canpolad kəndinin təsviri Nizami Gəncəvinin "İsgəndərnamə" poemasındakı xoşbəxtlər ölkəsini yada salır. Ordubadi bir kəndin timsalında kiçik bir utopik cəmiyyət yaratmağa müvəffəq olub. Bu cəmiyyətin ideallığı romanda xüsusi vurğulanıb: "Bir yerdə ki, haqsızlıq, oğurluq, yalançılıq, təcavüz, adam öldürmək, bir-birini incitmək olmasın, daha orada kimlərə cəza verilə bilər" [33,s.332].

Romanın bir döyüşçü kimi güclü, mərd qadın obrazı olan Gözəlin xarakterik xüsusiyyətlərinin açılmasında Atabəy Məhəmməd Cahan Pəhləvanla söhbəti zamanı ortaya çıxır. Atabəy kimi güclü hökmdarın ölümdən xilas edən gənc kəndli qızı Gözəl cəsarətli sözlər söyləməkdən belə çəkinmir. Məmməd Səid Ordubadi əsərində təsvir etdiyi Gözəl surətinin cəsarətini bu hissəni verməklə xüsusi vurğulayıb: "Atabəy gənc qızda gördüyü bu cəsarətdən heyrətə düşmüşdü. Bir nəfər kəndli qızının hökmdara "Bilmirəm hansı cəsarətiniz üçün Cahan Pəhləvan adını daşıyırsınız"... – deməsi hökmdarın ömründə birinci kərə eşitdiyi sözlərdən idi" [33,s.323].

Məmməd Səid Ordubadi yaradıcılığında obraz zənginliyi ilə fərqlənən digər romanı "Dumanlı Təbriz"dir. Bu romanında müəllifin tarixdən bəhrələnərək yaratdığı qəhrəmanlarla yanaşı, öz təxəyyülündən gələn ideyaları ötürməyə yardımcı olan obrazlarda var. Məmməd Səid Ordubadi romanındakı tarixi obrazları yaradarkən əsas tarixi faktlardan bəhrələndiyi üçün mükəmməl surətlər yaratmağı bacarmışdır. Müəllifin

yaratdığı hər bir obraz özünün fərdiliyi və xarakteri ilə seçilir. Lakin bütün obrazları romanın əsas obrazı kimi dəyərləndirə bilmərik. Çünki əsərdə olan obrazların hamısı hadisələrin təsvirində aparıcı mövqedə dayanmır. Məmməd Səid Ordubadi bu romanında epizodik obrazlara da geniş yer vermişdir. Öz yaratdığı obrazlar haqqında müəllif romanında bu şəkildə dəyərli məlumat ötürmüşdür: "Qəhrəmanı yalnız romanda aramaq doğru fikir deyildir. Qəhrəmanı həyat yaratdığı üçün, onu həyatda axtarmaq lazımdır"[36,s.310]. Romanda qeyd olunan bu ideya ilə müəllif yaratdığı qəhrəmanların bir qisminin real həyatdan gəldiyi fikrini irəli sürmüşdür.

"Dumanlı Təbriz" romanında obrazlar əsas və epizodik şəkildə iki yerə ayrıldığı üçün hər bir surətin xüsusi rolu var. Əsərin əsas obrazlarından biri olaraq Səttarxanı qeyd edə bilərik. Müəllif bu obraz vasitəsilə xalqın azadlıq mübarizəsinin başında duran tarixi bir şəxsiyyəti təsvir etmiş və romanında verəcəyi əsas tarixi ideyaları hər kəsə ötürməyi bacarmışdır. Romana diqqət yetirdikdə Səttarxan obrazının əsərin birinci hissəsində iştirak etdiyini görürük. Müəllifin əsas məqsədi Səttarxan hərəkatını bütövlükdə canlandırmaq olmadığı üçün obraza romanın hər bir hissəsində təsadüf edilmir. Yavuz Axundlu müəllifin yaratdığı bu obrazla bağlı qeyd etmişdir: "Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatı tarixində ilk dəfə bu inqilab rəhbərinin dolğun bədii obrazını yaradan bir sənətkar kimi hörmətə layiqdir" [3,s.235].

Müəllif yaratdığı obrazın xarakterik xüsusiyyətlərini təqdim edərkən fərqli məqamlar seçirdi. Səttarxan obrazının güclü, mübarizəni sevər, iradəli bir şəxsiyyət olduğu çətin vəziyyətlərdə qaldıqda açılırdı. Bu obrazın fərdi xüsusiyyətləri olan mülayimliyi, təmiz qəlbliliyi müəllif tərəfindən verilən şəxsi həyatla bağlı motivlərdə görünürdü.

Romanın digər tarixdən götürülən qəhrəmanı Bağırxan idi. Bağırxan obrazı müəllif tərəfindən real boyalarla təsvir olunub. Romanda müəllif Səttarxan və Bağırxan dostluğunu xüsusi vurğulamışdır. Bu iki dostun mübarizəsi, xalqın azadlığa çıxması uğrunda etdikləri hər bir qəhrəmanlıq romanın ilk hissəsinin süjet xəttini əhatə edir.

İnqilabi hərəkatın necə başlaması, hansı yollarla bu məqama gəlib çatmaları Səttarxan və Bağırxan ilə bağlı məlumatlarda oxucuya ötürülür.

"Dumanlı Təbriz" romanında ən əsas obrazı və romanın bütün hissələrinin iştirakçısı olan obraz Əbülhəsən bəydir. Əsərin ilk hissələrində adı verilməyən bu obraz romanın digər hissələrində adının Əbülhəsən olduğunu bildirir. Romanda nəql olunan bütün hadisələr müəllifin yaratdığı Əbülhəsən bəy obrazının dilindən verilir. Əbülhəsən bəy təkcə müəllifin ideyalarını ötürməklə kifayətlənmir, həmçinin hadisələrə olan şəxsi münasibətinidə bildirməkdən çəkinmir. Romanda inqilabı ideyaların əsası bu obrazla ifadə olunur. Əbülhəsən bəy Səttarxan hərəkatının bir növ gizli davamçısı olur. Müəllif Əbülhəsən bəyi ilk olaraq inqilaba daxil edir və onu inqilabın əsas üzvünə çevirir. Daha sonra Məmməd Səid Ordubadi öz qəhrəmanını roman boyu gizli inqilabi komitənin başçısı kimi təqdim edir. İnqilab başçısı olaraq fəaliyyətini olduqca yüksək şəkildə dəyərləndirməyi bacarır. Başladığı bu mübarizədə hər cür iş görməyə hazır olan Əbülhəsən bəyin xüsusi addımlarından biri də intibahnamələr çap etdirmək olur. Ümumiyyətlə, bir obraz olaraq romanda ən fəal obraz kimi Əbülhəsən bəyi qeyd edə bilərik. O,təkcə bir inqilabi komitənin üzvü yox, həm də insanlara daima dəyərli məsləhətlər ötürən biri idi. Əbülhəsən bəyin də xarakterik xüsusiyyətlərini göstərmək üçün müəllif digər obrazlarla qarşılıqlı fəailiyyətdə verir. Romanda Əbülhəsən bəyin Nina, Miss Hanna, Mahru xanım kimi müxtəlif mühitin yetirməsi olan qadınlara yardımı onun xarakterinə məxsus olan alicənablıq və mülayimlikdən irəli gəlirdi. Məmməd Səid Ordubadi bu obrazı dövrünün elmli, qabiliyyətli və əzmkar bir qəhrəmanı kimi təqdim edib. Əsər boyu biz, Əbülhəsən bəyin yüksək intellektli biri olduğunu görürük. Lakin müəllif onun bu elmi bilikləri necə əldə etdiyini və bu qədər insanla hansı şəkildə tanış olduğunu bildirmir. Bu haqda məlumat olmadığı üçün müəllifin yaratdığı bu obrazın məhdud cəhətləri olduğu ortaya çıxır. Ənvər Məmmədxanlı müəllifin yaratdığı Əbülhəsən bəy surətinin məhdud cəhətini məqaləsində qeyd edib. " "Dumanlı Təbriz" romanı haqqında qeydlər" adlı məqaləsində bu fikir irəli sürülüb: "Qəribə burasıdır ki, qəhrəman çox məharət işlədərək bütün bu tacirlərdən, mülkədarlardan, xanların və

müxtəlif məmurların inqilab haqqında nə düşündüklərini öyrənməyə çalışarkən, o, bir dəfə də olsun inqilabdan hər kəsdən artıq qurtuluş gözləyən əməkçi kütlələrin şüurunda gedən proseslə əsla maraqlanmır. Bütün Cənubi Azərbaycanı gəzib dolanarkən, bir dəfə də olsun bir kəndli qapısını döyüb içəri girmir, nə bir karxanaya girir, nə bir əsnaf emalatxanasına baş çəkir.” [38,s.91].

Qeyd olunan bu fikrə əsasən deyə bilərik ki, Əbülhəsən bəy obrazının bu qədər ideal yaradılması əsərə xələl gətirən bir cəhətdir. Bununla yanaşı, obrazların daxili aləmini göstərməyən müəllif onlara sadəcə sosial yöndən yanaşıb. Əbülhəsən surəti ancaq bir inqilabçı kimi təqdim olunur və onun keçmişi, ailəsi haqqında məlumat verilmir. Romanda geniş yer verilən əsas mövzulardan biri də məhəbbət idi. Müəllif sevgi xətti Əbülhəsən bəy və Nina ilə ötürməyi bacarıb. Bu dərin məhəbbətin daha da böyüməsi hər iki qəhrəmanın birgə olan məslək eşqindən də irəli gəlirdi. Məğlub olan inqilabdan sonra Əbülhəsən bəyin yaxından iştiraki ilə gizli inqilabi komitə fəaliyyətə keçir. Bununla da müəllif yaratdığı obrazla inqilabın ən fəal iştirakçısı olur. Akademik İsa Həbibbəyli Məmməd Səid Ordubadi haqqında bu fikri irəli sürüb: “...Əbülhəsən bəy Məmməd Səid Ordubadinin probrazına bənzəyir”[18,s.56]. Müəllif inqilabla bağlı ən vacib məsələləri də Əbülhəsən bəyin ideyaları ilə ötürür.

“Dumanlı Təbriz” romanında Məmməd Səid Ordubadi qadın obrazlarına xüsusi yanaşıb. Müəllifin yaratdığı qadın obrazlarının hər biri öz mühitinin təsiri ilə formalaşmışdır. Məmməd Səid Ordubadinin təxəyyülünün təsiri ilə yaratdığı Nina surəti maraq doğurur. Əsərin əsas obrazı olan Əbülhəsən bəydən fərqli olaraq Nina haqqında romanda hərtərəfli məlumat verilmişdir. İlk olaraq, Ninanın ailəsi haqqında məlumatda bildirilir ki, onun atası inqilabçı olmuşdur. Ninanın həyatının çətin keçməsinin ilk səbəbi də məhz atasının fəaliyyəti ilə bağlı idi. İnqilabçı bir ailədə yaşayan Nina və bacısının heç cürə iş tapa bilməmələrini müəllif xüsusi vurğulayıb. Elə bu səbəbdən yaşadıqları yeri tərk edən bacılar İranda özlərinə bir həyat qururlar. Müəllif Nina obrazını ən incə detalları ilə işləyib əsərinə daxil etmişdir. Ninanın İrana olan səfəri onun həyatının inqilab dövrünü əhatə edir. Müəllif inqilabı abu-havanı daha da qabarıq

təsvir etmək üçün Əbülhəsən bəy və Ninanın səmimi dostluğunu romanda qeyd edib. Bu səmimi tanışlıqdan sonra Nina bütün həyatını inqilaba, xalqın azadlıq mübarizəsinə həsr edir. Təbrizə gəldiyi ilk gündən Nina da bu mühitin yaratdığı xoş təəssüratları müəllif əsərdə bu şəkildə qeyd edib: "...Bunlar mənim dilimi bilməsələr də, öz məhəbbətlərini gözləri, çöhrələri və hərəkətləri ilə mənə bildirmək istəyirlər" [36,s.94].

Ninanın Təbrizə gəlişi onda inqilabi ruhu daha da alovlandırır. İnqilabi hərəkatın əsas qəhrəmanlarından biri məhz Nina olur. Ninanın fəaliyyəti romanda hərtərəfli əks olunub. Nina çalışdığı konsulxanaya daxil olan hər bir məlumatı və həmin yerə verilən vəsiqələri Əbülhəsən bəyə gətirərək gizli inqilabi komitəyə xeyli yardımcı olurdu. Əbülhəsən bəyin Ninanın inqilabi fikirlərinin formalaşmasına təsiri danılmazdır. Məmməd Səid Ordubadi təxəyüllünün təsiri ilə yaratdığı hər iki obrazı qarşılıqlı inkişafda təqdim etmişdir. Müəllif inqilabçıların məhdud cəhətlərini Əbülhəsən bəy və Ninanın danışıqları ilə ötürə bilmişdir.

Romanda Ninanın apardığı mübarizələrdən biri də qadın azadlığı məsələsi olur. Ümumiyyətlə, "Dumanlı Təbriz" romanında müəllif bu məsələni bir neçə qadın obrazının timsalında işıqlandırmağı bacarmışdır. İran mühitində qadınların hüquqlarının daima tapdalandığı və hər vəziyyətdə qadınların kənarlaşdırılması Ninanı narahat edirdi. Nina bunun üçün əsas mübarizə üsulu kimi qadınların savadlandırılmasını seçir. Əsərdə Ninanın Nazlı, Sənubər və Töhfənin təhsilə cəlb edilməsi üçün əlindən gələndən artığını etdiyinin şahidi oluruq. Bir müddət sonra bu gənc qızların avropalılar kimi İran qadınlarına xas olmayan geyimdə olduqlarını və elmli danışıqları ilə fərqlənən qadınlara bənzədiyini görürük.

Ninanın xarakteri inqilabi fəaliyyətdə apardığı dönülməz mübarizədə müəllif tərəfindən oxuculara daha dəqiq detallar ilə çatdırılır. Belə ki, romanın bütün hissələrində iştirak edən əsas surət Nina sarsılmaz, güclü və inqilaba hər zaman sadiq qalan biri kimi təqdim olunur. Bütün bu xarakterik xüsusiyyətlər ancaq onun sosial fəaliyyəti ilə aydın olur. Ninanı bir inqilabçı qadın obrazında təqdim edən müəllif bu mübarizədən Ninanın heç vaxt dönməyəcəyini vurğulamaq üçün romana daxil etdiyi bu

süjet maraq doğurur: “Qoy, o məhv olsun! Onun qanının qiyməti yoxdur. O, əksinqilab cəbhəsindədir. O, ölməlidir! O, özünün də, yoxsulların da düşmənidir...” [36,s.468]. Bu hissədə söhbət Ninanın doğma bacısı İraidadan gedir. İnqilab uğrunda bacısından belə keçən Nina öz məsləyinin ən sadiq qadını olaraq yüksək mövqeyə ucalır. Bu hərəkəti Ninanın inqilabi mübarizəyə həddindən artıq sadiq və bağlılığından irəli gəlir.

Romanda inqilabda iştirak edən, İran mühitindən çıxan kiçik ailə canlandırılıb. Bu ailənin üzvləri Cavad xan, əziz yoldaşı Zeynəb xanım və oğulları Məcid idi. Ailənin fonunda həm inqilaba qoşulan sadə insan surətləri, həm də min bir əziyyətə dözən cəmiyyətin bir parçası təqdim olunur. Bu ailənin Nina ilə əlaqəsi isə balaca Məcidlə bağlıdır. Cavad və Zeynəb hər ikisi inqilab uğrunda həlak olduqdan sonra onların övladları Ninanın himayəsində olur. Əsərdə təqdim olunan bu hissə olduqca vacibdir. Rus əsilli Ninanı həm inqilabçı, həm də qayğıkeş ana rolunda təqdim edən müəllif bununla bir çox ibrətamiz məsələlər ötürməyi bacarmışdır.Müəllif Ninanı əsərin sonluğunda belə inqilabı mövqedən dönmədiyinin təsvirini verir. Nina yetimxanada işləyir və bununla gələcək üçün mübarizə əzmindən dönməyəcək yeni inqilabçılar yetişdirir. Bu təsvir müəllifin romana daxil etdiyi xüsusi hissələrdən biridir. Müəllif bununla inqilabın ölməzliyini göstərməyə çalışmış və bildirmək istəmişdir ki, inqilab gənc nəslin timsalında yenidən alovlanacaq.

Məmməd Səid Ordubadi romanında bir neçə obrazın paralel şəkildə təsvirini vermişdir. Bu cür təsvirə yer verməkdə məqsədi hadisələri daha canlı və müqayisəli məsələlər şəklində nəzərə çatdırmaq idi. Belə paralel inkişafı Nina və bacısı İraida surətlərində görə bilərik. Bir ailədə böyüyən iki bacının seçdiyi yollar tamamilə fərqli idi. Nina inqilab uğrunda mübarizəni seçməsinə baxmayaraq, bacısı İraida varlı biri ilə evlənib öz həyatını yaşamağı seçir. Hətta romanda İraidanın bacısını özü kimi yaşamağa səslədiyinin şahidi oluruq. Ninanın həyatına müdaxilə etmək istəyən İraida sonda çirkin əməllərinin qurbanı olur. Əbülhəsən bəy və Mahru xanımın köməyi ilə İraida bacısı Ninadan uzaq bir yerə göndərilir. Yavuz Axundlu romanda iştirak edən iki surətlə bağlı bu fikri irəli sürüb: “Nina və İraida doğma bacı olsalar da yolları ayrı-ayrıdır. Bu da

əsərdəki dramatizmi daha da artırır. İki doğma bacı ayrı-ayrı həyatı təmsil edir. Ədəbiyyatımızda iki doğma qardaşın bir-biri ilə ideya düşməni olduğuna dair nümunələr gətirmək olar. Lakin iki bacının belə qarşılaşdırılmasına ilk dəfə Orubadinin romanında təsadüf edirik" [3,s.254].

"Dumanlı Təbriz" romanında Məmməd Səid Ordubadinin yaratdığı digər qadın obrazlarından biri Mahru xanımdır. Mahrunun acı taleyi romanın təsirli süjetlərindəndir. Mahrunun doğma qardaşı olaraq tanıdığımız Sərdar Rəşid əslində onun qardaşı belə deyilmiş. Sərdar Rəşidin atası Mahrunun doğma atasının qatili olur və Mahrunun anasını özünə zorla arvad edir. Mahrunun acınacaqlı həyatı da bundan sonra başlayır. Mahru gənc qız olduqda hər kəs tərəfindən doğma qardaşı kimi tanınan Sərdar Rəşidin təcavüzünə məruz qalır. Bu alçaq hərəkətlərdən canının qurtarmaq üçün Mahru daima mübarizə aparır. Müəllifin əsərinə daxil etdiyi güclü qadın surəti olan Mahru sona qədər də öz namusunu qoruyur. Sərdar Rəşidin nalayiq hərəkətlərindən can qurtarmaq istəyən Mahrunun ilk çıxış yolu rus polkovniki Smirnovla izdivaca girməyi olur. Rus polkovniki olan Smirnov inqilabçılarla atışma zamanı öldürülür. Bu seçdiyi yolda sonadək addımlaya bilməyən Mahru yenə də Sərdar Rəşidin evinə dönməyə məcbur olur. Həyatında baş verən bu hadisə Mahrunu bu səssiz həyatdan ayıran inqilaba qoşulmağa vadar edir. Romanın bir hissəsində Mahru İran mühitində yaşayan adi qadınlar kimi təsvir edilsə də, sonrakı hissələrdə müəllif Mahrunu inqilabçı qadın kimi mübarizəyə qoşur. Yaşadığı ağır vəziyyəti belə inqilab mübarizəsi uğrunda unudur. İnqilabi mübarizəni dərindən başa düşməsə də, Mahru İran mühitin qadını olaraq anlayır ki, inqilab qadınları bu mühitin acımasız rəftarlarından azad etməkdə onlara kömək edəcək. Mahru bu ideyaları dərindən dərk etdikcə inqilabi mübarizəyə tez bir zamanda bağlanır. Özünün yaşadığı ağır günlərdən məhz bu mübarizə ilə qurtulacağını başa düşür. Müəllifin Mahru və Tütünçü oğlunun sevgisini bu hissədə təsvir etmək də məqsədi inqilaba bağlılığını daha da qabarıq bildirmək idi. Mahru Əsədi sevdikdən sonra inqilaba bir daha ayrılmaz tellərlə bağlanır. Mahru obrazı haqqında Yavuz Axundlu bu fikri qeyd etmişdir: "Mahru əsərdə dinamik bir surət kimi təqdim edilmişdir. O, oxucunun gözü

qarşısında dəyişir, inkişaf edir, hətta ciddi tapşırıqları yerinə yetirir, Sərdar Rəşidin bir sıra sirlərini inqilabçılara çatdırır” [3,s.254].

Məmməd Səid Ordubadi bu romanında xarici ölkələrin siyasətini göstərmək üçün yaratdığı qadın obrazları da mövcuddur. Miss Hanna obrazının təsvir edildiyi hadisələrdə Almaniya siyasətinin başlıca əlamətləri vurğulanıb. Miss Hanna ilk olaraq Təbrizə gəlişini xeyriyyə işləri ilə əlaqələndirsə də, sonrakı mövqedə onun siyasi fəaliyyəti ortaya çıxır. Müəllif Miss Hanna ilə bağlı məqamları göstərmək üçün yenidən Əbülhəsən bəy obrazına müraciət edir. Romanda Miss Hannanın Əbülhəsən bəylə tanışlığından sonra əsas məsələlər aydınlaşır. Biz Hannanın Amerika konsulluğunda çalışan bir alman casusu olduğunu romanın sonrakı hissələrində öyrənirik. Əsərdə Hanna gözəl, gənc bir qız kimi təsvir edilsə də, sonradan onun siyasi oyunların qurbanı olduğu bildirilir. Hannanı düşdüyü hər çətin vəziyyətdən xilas edən isə Əbülhəsən bəy olur.

Romanda diqqət çəkən məqamlardan biri də Hannanın Əbülhəsən bəyə olan dərin sevgi hissləri idi. Bu sevgi Hannanın romanın əsas süjet xəttinə daxil olması ilə başlayır və müəllif tərəfindən maraqlı şəkildə sonlandırılır. Nina və Hannanın dostcasına görüşüb bir-birlərinə səmimi münasibət bəsləməsi müəllifin xüsusi toxunuşu ilə bu sevgi xəttinin sonlandırılması idi. Yavuz Axundlu romanda verilən sevgi xəttini bu cür dəyərləndirmişdir: “Məmməd Səid Ordubadi Miss Hannanın Əbülhəsən bəylə olan məhəbbət səhnələrinə geniş yer vermiş, onların məhəbbətini qismən sentimental planda təsvir etmişdir” [3,s.255].

“Dumanlı Təbriz” romanında obrazlar üç şəkildə təqdim olunmuşdur:

1. inqilabın təsviri ilə birbaşa əlaqəsi olan obrazlar;
2. gizli inqilabi komitənin fəaliyyəti ilə bağlı olan obrazlar;
3. əksinqilabi cəbhədə dayanan obrazlar.

Əksinqilabi cəbhəni təmsil edən obrazlara xüsusi olaraq Sərdar Rəşid və Səməd xanı qeyd edə bilərik. İran mühitinin daxilində olan hakimiyyəti təmsil edən bu iki obraz əslində xarici dövlətlərin oyuncağı idilər. Müəllif hər iki obrazı real cizgilərlə təqdim

etməyə çalışmışdır. İlk olaraq, Səməd xan Şücaüddövlənin fəaliyyətinə nəzər salaq. Bu surətin müəllif tərəfindən mənfi planda təqdim edilməsi onun fəaliyyəti ilə əlaqəli göstərilir. Rusiyanın himayəsinə sığınan Səməd xan öz xalqının gələcəyini heç bir zaman düşünmür. İran xalqının satılması, bir çox insanların həbsi və ölmündə əlaqəsi olan Səməd xan ən sonda əməllərinə görə ifşa edilir. Səməd xandan sonra onun yerini alan Sərdar Rəşiddə onun yolunu davam etdirir. Hətta qəddarlıq və satqınlıqda Səməd xanı belə keçməyi bacarır. Sərdar Rəşidin doğma bacısı kimi qələmə verdiyi Mahruya qarşı etdiyi namussuz davranışlar onun xislətindəki pisliyin göstəricisi idi. Sərdar Rəşid satqınlıqda ən yüksək mövqeyə qalxır. Öz gələcəyini hər şeydən üstün tutan Sərdar Rəşid İran xalqının məhv olmasını belə gözə alır. Sərdar Rəşid Rusiya, Almaniya, Amerika, Türkiyə kimi dövlətlərin hər birinə ayrı-ayrı vədlər verərək öz ölkəsini rahatlıqla satan biri idi. Eyni fəalliyyəti səciyyələndirən bu obrazlar müəllif tərəfindən fərdi cizgilərlə təqdim edildiyi üçün fərqli mövqelərdən araşdırmaq mümkündür.

Romanda yaradılan obrazlar arazında inqilabdan xüsusi maraqları üçün istifadə edənlər də var. Belə obrazlardan biri tacir Məşədi Kazım ağa idi. Yazıçı bu obraz vasitəsilə inqilaba xüsusi maraqları üçün yanaşan tacirlərin ümumiləşmiş obrazını yaratmışdır. Əbülhəsən bəyin yardımı ilə inqilabi mübarizədən xeyli pul qazanan Məşədi Kazım ağa özünü əsl inqilabçı kimi qələmə versə də, bir çox hallarda müəllif onun əsl simasını açıb göstərmişdir.

Məşədi Kazım ağanın inqilabla bağlı məlumatsızlığı Nina tərəfindən ona ünvanlanan sualda ortaya çıxır: "-Əcəba, inqilabdan danışa bilərmisiniz? -Axı niyə bimərəm? Orada iştirak etməmişəmmi?" [36,s.347]. Bu cavabı verən Məşədi Kazım ağa daha sonra inqilabi mübarizədə iştirak etmə səbəbi olaraq "elə belə də" cavabını verir.

Əsərdə müxtəlif dövlətlərə məxsus konsulluqlar təsvir edilmişdir. Bu cür konsulluqların təsvirini verən müəllif həmçinin orada müxtəlif obrazlara da müraciət etmişdir. Həmin obrazlar hadisələrin müəyyən hissəsinin açılmasında fəal iştirak etsə də, sonrakı hissələrdə romandan çıxarılır. "Məmməd Səid Ordubadi İran həyatının tam

mənzərəsini göstərmək üçün romanda müxtəlif zümrələri təmsil edən geniş surətlər qalereyası yaratmışdır. Bu surətlərin sayı 100-dən çoxdur. Müəllif bu surətlər vasitəsilə əsərdə irəli sürdüyü ideyaların daha da reallaşmasına çalışmışdır” [3,s.261].

Məmməd Səid Ordubadi romanlarında yaratdığı obrazlar vasitəsilə Azərbaycan ədəbiyyatına zəngin obrazlar qalereyası bəxş etmişdir. Ordubadinin romanlarındakı xarakterlər haqqında Qulu Xəlilov öz məqaləsində bu fikri irəli sürmüşdür: “Məmməd Səid Ordubadinin tarixi romanlarında xarakterlər ən çox həyat təfərrüatı ilə dərinləşmiş və kamilləmiş sifətləri ilə deyil, ictimai-siyasi baxışları, görüşləri, düşdükləri və keçirdikləri macəraları ilə yadda qalırlar. Lakin küll halında həyat həqiqətinin pafosu, realizm onun romanlarında aparıcı olmuş, üstünlük təşkil etmişdir. O, Azərbaycan sovet romanını Rzaquluxan, Böyükxanım (“Bədbəxt milyonçu”), Səttarxan, Əbülhəsən bəy, Nüsrət Hüseynov, Miss Hanna, Nina, Zeynəb, Məcid, Tütünçüoğlu (“Dumanlı Təbriz”), Nizami, Fəxrəddin, Qətibə, Əmir İnanc, Taliə, Rəna, Səba xanım, Atabəy Məhəmməd (“Qılınc və Qələm”) və bu kimi yadda qalan, öz əxlaqı, rəftarı, fikri, əqidəsi ilə seçilən canlı təbii vətəndaşlarla zənginləşdirmişdir”  [20,s.207-215].

## 2.2 Ədibin romanlarında qaldırılan məsələlərin ideya-bədii xüsusiyyətləri

Azərbaycan ədəbiyyatında M.S.Ordubadi qələminin əvəzolunmaz yeri vardır.Təkcə öz vətənində deyil ,ondan kənarda da görkəmli sənətkar olaraq tanınan Ordubadi öz yaradıcılığı ilə bədii ədəbiyyata olduqca dəyərli ədəbi nümunələr bəxş etmişdir.M.S.Ordubadi şairlik fəaliyyəti ilə yanaşı nəsr və dram sahəsində də qələmini sınamış,həmçinin jurnalist olaraqda çalışmışdır.Ordubadinin zəngin yaradıcılığı ilə bağlı bir çox tətqiqatçılar məlumat vermişdir.M.S.Ordubaidinin nəsr sahəsindəki fəaliyyəti ədəbiyyatımız üçün dəyərli və əvəzsiz mənbədir.Görkəmli sənətkar nəsr sahəsinə ciddi yanaşdığı dövrdən şeirə qarşı əvvəlki marağı olmur.Bu barədə Məftun Əkbər öz kitabında qeyd etmişdir: “M.S.Ordubadi 1932-ci ildən sonra nəsrlə daha ciddi məşğul olur,şeirə isə əvvəlki qədər maraq göstərmir.” [14,s.117].

M.S.Ordubadi yaradıcılığı ilə bağlı bir neçə məqalə və xeyli kitablar mövcud olsa da, müəyyən dövr onun yaradıcılığı araşdırmalardan kənarda qalıb.Bunun da müəyyən səbəbləri var idi.Görkəmli sənətkarın ədəbi yaradıcılığının məhsuldar dövrü ölkənin olduqca keşməkeşli vaxtına təsadüf etmişdi.Məhz belə bir dövrə təsadüf etməsi Ordubadi yaradıcılığın tam dəqiq təhlilinə mane olmuşdur.M.S.Ordubadi irsi bir çox sənətkarlar üçün hələ də əvəzsiz mənbə olaraq istifadə edilir.Nəsr yaradıcılığında ilk cığırlar açan və özündən sonrakı nəslə oldudca dəyərli ənənə buraxan Ordubadi yaradıcılığı ədəbiyyatımız üçün əvəzedilməzdir.Xüsusi olaraq qeyd edə bilərik ki, indiki dövrdə belə Ordubadi yaradıcılığına yenidən müraciət edilir.Sənətkarın yaradıcılığı hər cəhətdən ədəbiyyatın möhtəşəm abidəsidir.Tarixi romanlara müasir yanaşma,rəngarəng obraz yaradıcılığı,tarixilik və müasirliyin paralelliyi,süjetin özünə məxsusluğu Ordubadi ənənəsinin əsaslarını təşkil edir.Dəyərli sənətkar haqqında daha ətraflı məlumat almaq üçün “Həyatım və mühitim” adlı memuar-xatirə əsəri olduqca dəyərlidir. Yaşadıqları ilə bağlı real məlumatları ötürən əsər Ordubadi irsinin əsasını təşkil edir.Bu əsərlə müəllif təkcə həyatı ilə bağlı faktları deyil,yaşadığı dövrün təsvirini də detalları ilə verib.Müəllif həmin dövrdə Rusiyanın apardığı müstəmləkəçilik siyasəti,insanların sinfi təbəqələşməsini də əsərində təsvir edir.Bu tarixi faktlarla yanaşı Ordubadın həm iqtisadi,həm də mədəni və siyasi həyatını da qeyd etmişdir.Ədibin əsərində qeyd etdiyi məsələlər sadəcə kənardan baxılaraq edilən təsvirlə məhdudlaşmır,mühitin,cəmiyyətin siyasi-iqtisadi həyatının nələrdən qaynaqlandığını və bu hadisələrin yazıçı qələminə təsir etdiyini də ifadə edir.Müəllifin Rusiya imperiyasının siyasəti ilə bağlı verdiyi məlumatlarla yanaşı bu siyasətə xidmət edən məzhəb mübarizələrini də vurğulamağı yaddan çıxarmamışdır.Doğru olaraq vurğulanan məzhəb və təriqət mübarizəsinin yaradılması çarizm siyasətini yeritmək üçün bir vasitə idi.Rusiya imperiyası bu kimi üsullardan istifadə etməklə geriliyin xalq arasından getməməsini istəyirdi.M.S.Ordubadidə məhz çarizmin bu siyasətini dərindən öz əsərində qeyd etmişdir.Müəllif bu siyasətin əsas üsulu kimi xalq arasında ziddiyətlərin seçildiyini bildirmişdir.

M.S.Ordubadi atası haqqında xatirələrində verdiyi məlumatda atasının kim olduğunu belə qeyd etmişdir: “ Atam Hacıağa Məhəmməd oğlu yeddi arxa keçdikdən sonra Şah Abbasın yanında böyük bir mərtəbə qazanmış məşhur şair Mirzə Hatəm Ordubadinin nəvəsidir.Mirzə Hatəmdən atam Hacıağaya qədər familiyamızda şairliklə məşğul olan yalnız ikinci Mirzə Ağacan olmuşdur.Atam Hacıağanın təxəllüsü “Fəqir”dir.Onun böyük divanı vardır.” [30,s.5]. Müəllif əsərindən qeyd etdiyi bu hissədə atasının təxəllüsünü də xüsusi vurğulayıb.Atasının bu təxəllüsü götürməsinin səbəbi olaraq yoxsulluğu qeyd etmişdir.Ordubadi atasının yoxluğunu təxəllüsü ilə göstərsə də,atasının maddi cəhətdən çətin vəziyyətdə olmasına baxmayaraq yaşadıqları şəhərdə “Əncüməni şüəra” adlı ədəbi məclis təsis etdiyinidə bildirmişdir.Yaşadıqları mühitdə çətin vəziyyətlərin olması Ordubadinin atasını şairlik fəaliyətindən uzaqlaşdırmamışdır.Həmin dövrdə şeirə yüksək dəyər verilmədiyini qeyd edən müəllif atasının şeirlərinə görə təhqir olduğunu da bildirmişdir.Baş verən bu cür sarsıdıcı hadisələr uşaq yaşlarında olan Ordubadiyə dərin təsir etmişdir.Atasının çox vaxt yardım almaq üçün bir çoxlarına tərif yazdığını qeyd edən ədib bu təriflərə görə bəzən mükafat verildiyinidə deyirdi: “Mən sonra bildim ki, atam Mənsur ağaya tərif yazıb aclığını bildirmişdi.Dəbbağ Həsən bir dəsmalın ucuna pul düyünlədi və məni evimizə qədər yola saldı.Atam bu cür məktublardan bir çoxuna göndərirdi.Lakin yardım ala bilmirdi.” [30,s.9].

Ədəbiyyatımızda M.S.Ordubadi qələminin necə formalaşdığını xatirələrində əks olunan məlumatlara nəzər salaraq öyrənə bilərik.Ədibin xatirələrinində müəlimi Məhəmmədtağı Sidqi haqqında dəyərli görüşlərini qeyd edib.Məhəmmədtağı Sidqinin çalışdığı məktəbin və oradakı fəlaiyyətin xalq üçün nə qədər önəmli olduğunu müəllif bu barədə verdiyi təsvirlərdə aydın şəkildə oxuculara ötürməyi bacarmışdır.Ədibin dəyərli müəllimi Məhəmmədağa Sidqi təkcə xalqın biliklәndirilməsinə deyil,bununla yanaşı millətin milli duyğularının oyanması üçün mübarizə aparırdı.M.Sidqi dövrünün olduqca dəyərli ziyalıları ilə əlaqə yaradır və onlardan lazimi köməklər alırdı.Bu fəaliyyəti ilə yanaşı xaricdə nəşr edilən qəzetləridə əldə edib çalışdığı məktəbə gətirirdi

və bunları hər kəsin oxuyub maariflənməsi üçün edirdi.Müəllif müəllimi Məhəmmədağa Sidqinin xalqa bəslədiyi dərin məhəbbət hissini bu cümlələr ilə qeyd etmişdir: "Sidqi məktəbdə müəllimləri hazırladığı vaxt gələcək üçün üsuli-cədid müəllimləridə hazırlayırdı.Sidqi Naxçıvanda olduğu müddət əlifba və yazı məsələlərini tənqid etdiyi kimi,bir lisan məsələsidə ortalığa atılmışdı.Naxçıvan ürəfasının türkcə bilmədikləri və danışdıqları sözlərin çoxu rusca olduğu üçün Sidqi öz əsərlərində onları gülə-gülə tənqid edirdi." [29,s.332].

M.S.Ordubadi "Həyatım və mühitim" adlı xatirə-memuar əsərində həyatının məhbusluq dövrlərini də qeyd edib.Ordubadi bu illərdə belə yazıb yaratmaqdan kənarda qalmıyıb.Görkəmli sənətkarın xatirələrində bəhs etdiyi Naxçıvan,Gümrü,Tiflis,Bakı,Rostov,Çerkassk həbsxanalarının təsviri imperiya siyasətinin ifşası idi.Müəllif həbsxanadakı mənzərəni təsvir etməklə imperiya quruluşunun mənfi tərəflərinə işıq salmışdır.Belə mənfiliklərdən biri həbsxanada olan Mələknisə adlı qadının həyatının məhviylə bağlıdır.Mələknisənin olduqca gözəl və məsum bir qadın olması müəllif tərəfindən vurğulanır.Lakin bu saf və gözəl qadın həbsxanada varlıların kef məclislərinə aparılaraq həyatı məhv edilir.Ağla sığmaz işgəncələrə məruz qalan Mələknisə hətta ana belə olur.Mələknisənin övladı həbsxana nəzarətçisi olan Cəngü Əli tərəfindən qəddarlıqla öldürülür.Mələknisənin aqibəti isə onun sonda asılaraq öldürülməsi ilə nəticələnir.Ordubadi bir qadının əxlaqsız yola çəkildiyinin təsvirini verməklə ipmeriya quruluşunun mahiyyətini açıb göstərmişdir.Quruluşun düzgün qaydalar üzərində hərəkət etmədiyini müəllif təkcə Mələknisə ilə bağlı məqamları verməklə kifayətlənməmişdir.Həbsxanada olan digər məhbus qadınlarda ədibə güvənərək öz məktublarını ünvanlayırdılar.Qadınların dəyərli ədibə göndərdikləri məktub bir daha deyilənləri təsdiq edirdi.

M.S.Ordubadinin məhbus olduğu yerlərdən biri Naxçıvan idi.Görkəmli ədib bu qədər çətinliklə qarşılaşsa da, yenə də qələmini yerə qoymurdu. "Məhşur dolandırıcılar" adlı romanını məhz bu illərdə qələmə alan ədib boş vaxtlarını bu şəkildə dəyərləndirirdi.Yaradıcılığında yer alan bu romanı Ordubadini həbsxanadan asanlıqla

çıxara bilməmişdir.Həyatının bu çətin illərində müəllif imperiyanın siyasətinin ağırlığını bir daha türk əsgərlərinin başına gətirilən hadisələrin təsvirini verməklə də göstərmişdir.Çar zülmünün bariz mənzərəsini Ordubadi xatirə-memuar əsərində bu təsvirləri qeyd etməklə göstərmişdir: "Biz saxlanınlan yerdə türk əsgərləri ilə doldurulmuş qatarlar da durmuşdu.Vaqonlar at vaqonları idi,açıq və soyuq vaqonlar idi.Əsirlər əllərində dəmir konserva qutularını tutub qar istəyir və susuz olduqlarını deyib yalvarırdılar." [30,s.105].

Ədibin həbsxana həyatının digər mərhələsi Tifsildə məhbus olduğu dövrü təşkil edir.Bu dövrdə təsvir etdiyi hadisələrin əsas mövzusu insan eybəcərliyindən doğan məsələlər və ictimai rəzalətin hər detalı ilə formalaşan hərəkətlər idi.Həbsxanada diqqət çəkən əsas məqamlardan biri Məşədi Hüseyn və Baqratın rus oğrularını özlərinə məşuqə etmələri idi.Volodya və Jorkani rus oğruları olsalarda həbsdə məşuqə kimi saxlanmaları idarəçiliyin heç birinə təsir etmirdi.Oğrulara xüsusi nəzər-diqqət ayrılması həbsxanada olan heç kəsi narahat etməməsi ictimai rəzalətin əsas göstəricisi idi.

Yazıçının Bayıl həbsxanasında olduğu dövrü maraqlı və bir o qədərdə təzadlı dövr olaraq şərh etmişdir.Burada baş verən hadisələr olduqca heyrətamiz idi.M.S.Ordubadi Bakı qoçuları məsələsinə öz xatirələrində toxunaraq özünün bunlar haqqında doğru düşüncədə olmadığını bildirmişdir.Bayıl həbsxanasında olan Ordubadiyə bir gün Bakı qoçularından yemək göndərilir.Qoçulardan qorxan Ordubadi bu payı geridə göndərə bilmir.Nəhayət,Ordubadi həbsxanada qoçular olan hissəyə köçürülür və bura gəldikdən sonra ədib qoçularla bağlı düzgün görüşdə olmadığına tamamilə əmin olur.Ədib Bakı qoçularıyla bağlı eşitdiklərinə əsasən onların düşmənə qarşı olduqca qəddar yanaşdığını bilsə də,bir ziyalı şəxsə qarşı bu cür nəzakətli davranışıda onlardan gözləmədiyi üçün çox təəccüblənmişdi.Bu cür qarşılanması dəyərli yazıçını çaşdırsa da,o öz fikirlərində yanıldığı üçün bir qədər də sevinirdi.Hətta həbsxanada olan qoçuların burada qəzet oxumaqla maarifləndiklərini də ədib xatirələrində vurğulayıbdır.Bu məsələyə toxunmaqla ədibin düşüncələrində yaranan təzadlı halları qeyd etdik.M.S.Ordubadi qoçularla bağlı məsələyə Üzeyir Hacıbəyovla olan xatirəsində də toxunmuşdur:

“Günlərin birində müştərək yazılmış bir məktub aldım.Məktub Əzimzadə,Üzeyir bəy,bir də o zamanın satiraçılarından birisi tərəfindən yazılmışdı.O məktubda Üzeyir bəy yazırdı: “Səid!Təəcüb edirəm ki,nə üçün Ordubadda qapanıb qalmısan.Sən yığışıb Bakıya gəlsən,öz yazılarına çox geniş səhifələr tapa bilərsən,səninlə yaxından tanış olarıq,sənin irəli getməyin üçün imkan yaradarıq.Əzimzadənin dediyinə görə qoçulardan qorxduğun üçün Bakıya gəlmək istəmirsən.Bu barədə heçdə qorxmağa dəyməz.Mənə inan,qoçuların özüdə satiranı gülə-gülə oxuyurlar.” [35,s.16]. Ədibin bu xatirəsində qeyd etdiyi fikirlərindən də aydın olur ki,qoçularla bağlı heç doğru yanaşmada olmayıb.Ədibin oxuculara ötürdüyü bu dəyərli hadisələr onun qələmindən çıxan realist məsələlərdən ibarət idi.

M.S.Ordubadi sürgün illərininin təsvirini verərkən bildirirdi ki,həyatının mənfiliklərlə dolu olmasına baxmayaraq əsla öz qələmini yerə qoymayacaq.Doğrudan da görkəmli sənətkar həbsxana illərində belə yazıb yaratmaqdan üz döndərmir.Yaradıcılığında yeni ideyaların formalaşmasına məhz bu illərdə rastlaşdığı fərqli insanlar,bəzən düzgün, bəzən isə acımasız həyat yaşayan insanlar onun həyat hadisələrinə yeni baxış bucağını formalaşdırır.Ədibin digər həbsxana xatirələri Çerkassk həbsxanası ilə bağlıdır.Bu illər də ərzində yaşadıqları müəllifin yaradıcılığına qalıcı və silinməz bir iz qoymuşdur.Burada həbsdə olduğu illərdə Ordubadiyə sarsıdıcı təsir edən bir hadisə baş verir.Bu hadisə onun həyatında olan Raya adlı qız ilə bağlıdır.Raya öz çalışdığı yeri icazəsiz tərk etdiyi üçün həbsxanaya alınır və burada ağır işgəncələrə görə ağlını itirir.Daha sonra Raya dəlixanaya yerləşdirilir və burada həyatını itirir.Baş verən bu acınacaqlı hadisə ədibə çox ağır təsir edir və bunu öz xatirələrində bu şəkildə qələmə alır: “Mən Sarətsından Rayanın görüşünə iki dəfə də getdim.O hər görüşdə məni tanıyır və hiss edirdi ,bəzən keçmişlərdən parçalar xatırlayırdı.O,mənim dəlixanada qalmağımı tələb edirdi, “hövsələm darıxır”,-deyə özünün burada nə üçün saxlandığından şikayət edirdi.Buna baxmayaraq, yenədə hər bir görüşün axırında ağlayır və bayılırdı.” [30,s.142]. Bu xatirələri qeyd edən ədib Rayanın ölüm xəbərini anasından öyrəndikdən sonra çox sarsıldığını bildirmişdir.Ümumilikdə yazıçının həyatının bu cür çətin və

sarsıdıcı keçməsinə baxmayaraq ədəbiyyatımıza əvəzedilməz bir yaradıcılıq qoyub getmişdir.

M.S.Ordubadi yaradıcılığı mövzu baxımından da olduqca genişdir.Müəllifin əksər romanlarının əsas mövzusu Cənubi Azərbaycan ilə bağlıdır.İran həyatından və Cənubi Azərbaycan mövzusundan bəhs edən şeirlər,hekayələr,felyatonlar yazsada bu mövzuların daha ətraflı şərhini romanlarında vermişdir.Bu mövzu ilə bağlı yazdığı ən irihəcmli əsəri "Dumanlı Təbriz" dir.M.S.Ordubadinin nəsr yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən romanı "Dumanlı Təbriz" də müəllif İran mühitinin təsvirini verməklə Şərqi tanıtmağı məqsəd olaraq qarşısına qoyub.Daha sonra Ordubadinin İranda baş verən üsyan və inqilabları göstərməklə tarixin bizlərə bəxş etdiyi bir çox məsələləri işıqlandırmışdır.Tarixdən də məlum olduğu kimi İranda insanların torpaqda çalışmağı və bununla öz yaşamlarını təmin etdikləri bildirildi.XX əsrin əvvəllərində isə torpaq sahələrinin böyük bir qismi mülkədarlara məxsus idi.Mükədarlar bundan istifadə edərək ağır həyat şəraitində yaşayan kəndlilərə daha da pis həyat bəxş edirdilər.Müxtəlif üsullarla onlara cəzalar verilir,əmlakları müsadirə edilirdi.Bütün bunların nəticəsi olaraq insanlar bir qismi buna dözməyərək etirazlar edir və mülkədarların bu siyasətinə qarşı çıxırdılar.1905-ci ildə də Təbriz və Tehranda bir çox nümayişlər keçirilirdi.Bu nümayişlərin keçirilməsinə səbəb idarəçiliyin dəyişdirilməsini tələb etmələri və düzgün idarəçiliyin aparılmaması idi.Ard-arda baş verən bütün çıxışların səbəbləri xalq tərəfindən gələn eyni narazılıqların olmasıydı. İlk başlanan nümayişlərin təsiri ilə digər nümayişlərdə baş verdi.Yavuz Axundlu bu tarixi dövrdə baş verən nümayişləri xronoloji baxımdan belə şərh etmişdir: "Bu nümayişlərin təsiri ilə 1905-ci ilin yanvarında Müzəffərəddin şah guya güzəştə gedib məşrutə yaratmağa söz versə də öz vədini yerinə yetirmir.Buna görə 1906-cı ilin iyun-iyul aylarında yenidən nümayişlər oldu.Təbrizlilər iki gün ərzində yenidən baş nazirin istefasını irəli sürdülər,bu tələbə əməl edilməzsə yenidən üsyana başlayacaqlarını bildirdilər.Nəhayət, 30 iyulda Enəlddövlə istefa verdi.Avqustun 5- də isə Müzəffərəddin şah konstitusiya yaradılması üçün fərman verdi.Sentyabrn 9-da şah milli məclis yaradılmasına razılıq verdi.Sentyabrın 9-da şah

milli məclis yaradılmasına razılıq verdi.Nəhayət,oktyabrn 7-də birinci İran məclisinin təntənəli açılışı oldu.1906-cı ilin axırlarında Müzəffərəddin şahın ölümündən sonra onun yerinə gələn kütbeyin Məhəmmədəli şah konstitusiyanın qəbul ediolməsini hər vəchlə gecikdirirdi.Bu zaman mücahidlər cəmiyyəti fədai dəstələri yaradaraq,məşrutə uğrunda aparılan mübarizədə daha fəal iştirak edirdi.Dözülməz şəraitdə yaşayan kəndlilər də ,kiçik kustar müəssisələrinin fəhlələri də bu mübarizəyə qoşuldular.” [3,s.205-206]. Bu məlumatla aydın olur ki,düzgün idarəetmə olmadığı üçün xalq bu kimi üsyanları yaradırdı.İranda bir çox şəhərlərdə əncümənlər yaratmaqda məqsəd xalqın hakimiyyətlə bağlı mübarizəsinin həyata keçirilməsi ilə əlaqədar idi.Xarici müdaxilələr,daxili idarəçiliyin düzgün qurulmaması inqilab hərəkatının formalaşmasında ən mühüm səbəblərdən idi.İnqilabların ən fəal məkanı olaraq Təbriz şəhəri fərqlənirdi.İranda baş verən bu inqilabi hərəkat digər ölkəloridə ciddi narahat edirdi və bunun üçün hər addımda inqilabı boğmağa çalışırdılar.Tarixdən alınan məlumatlara əsasən İran inqilabının uzun zaman apardığı mübarizə ən sonda məğlubiyyətlə nəticələnir.Ancaq bu böyük İran inqilabı xalqın azadlığı uğrunda apardığı əsaslı mübarizələrdən idi.Bu inqilabın məğlubiyyəti digər ölkələrin İrana müdaxiləsini daha da artırdı: “İran inqilabının məğlubiyyətindən sonra İngiltərə,Rusiya,Amerika,Almaniya imperialistləri İranda daha geniş fəaliyyət göstərirlər” . [3,s.208].

M.S.Ordubadi “Dumanlı Təbriz” romanını yazarkən tarixi mənbələri dərindən araşdırmışdır. “Dumanlı Təbriz” romanını məşrutə romanı adlandırmaq olar.Hətta İsa Həbibbəyli bu romanına görə M.S.Ordubadini Şimali Azərbaycanın görkəmli məşrutəçi yazıçısı adlandırıb. [18,s.56].

Müəllif XX əsrin əvvəllərində daxili çəkişmələrin geniş hal aldığı İran mühitini,İranda yaşayan xalqların həyat və mübarizəsini öz romanında əsas sujet xəttinə çevirib.Roman Səttarxan hərəkatı ilə başlayır və bu hərəkatın İran inqilabının ilkin dövrü kimi qələmə alınır.Müəllif daha sonra məğlub olmuş inqilabın gizli fəaliyyət dövrünü öz təxəyyülündən gələn amma reallığa yaxın çalarlarla əks etdirməyi bacarmışdır.Tarixi

roman janrının dəyərli nümunəsi olan bu əsərdə ilk olaraq kəndli və mülkədar münaibətlərinə toxunulub.M.S.Ordubadi İranda yaranan İnqilabın ən əsas səbəblərindən biri kimi məhz bu səbəbi geniş şərh edib.Dörd hissədən ibarət olan “Dumanlı Təbriz” roman epopeyasında müəllif birinci hissədən kəndli mülkədar məsələsini öz oxucularına aydınlaşdırıb.Əsərin ilk hissəsində kəndli həyatı və bu həyatın çətin tərəfləri canlandırılıb.Kəndlilər və torpaq üzərində öz hakimiyyətini bərqərar edən mülkədarlar arasında olan münaqişələr İran mühitinin əsl üzünü açıb göstərmək üçün bir vasitə idi.Bu mühitin acı tərəfi mülkədarların kəndlilərlə olan münasibətində əks olunurdu.Belə ki,mülkədar kəndlilərə o qədər ağır cəzalar tətbiq edirdi, bəzən İran kəndlisinə verilən bu cəzalar insanlığa sığmayan hərəkətlər belə olurdu.Əsərin  I hissəsindən qeyd olunan bu nümunəyə diqqət etsək mülkədarların hüququnun o mühit üçün nə qədər yüksəkdə dayandığını görə bilərik: “ Hökumət bunların özüdür,çünki torpaqda,rəiyyətdə bunların ixtiyarındadır”. [36,s.19].

Romanda vurğulanan əsas məqamlardan biri kəndlilərin mülkədarlara qarşı üsyan qaldırması idi və bu üsyan digər güclü kütlələrində mənafeyinə toxunması ilə nəticələnirdi.Çünki istər mülkədarlar olsun,istərsə də ruhani,feodal kimi təbəqələr digər xarici ölkələrə sığınırdılar və kəndlinin mübarizə aparması üçün bu güclü dövlətlərə qarşıda vuruşmalı olurdu.Daxili hökümətin zəifliyi nəticəsində İran mühitinin kəndliləri bu acınacaqlı hal qarşısında qalırdılar.Hər cəhətdən zəif olan kəndlilər dünyagörüş baxımındanda çox məhdud biliklərə malik idilər və onların apardığı mübarizədə bir o qədər siyasi dünyagörüşlə əlaqəli deyildi.Kəndlilər onlara verilən ağır cəzalara görə belə üsyanlara əl atırdılar.Kəndlilərin hansı düşüncədə olduğunu romanın əsas obrazı olan Əbülhəsən bəyin dilindən verilən nümunədə görə bilərik : “ Rəiyyət üçün heç fərqi yoxdur.Hər kəs olursa olsun,onlar soyulmağa hazırdır”.  [36,s.11].

Romanda inqilabi hərəkatın tarixi ilə yanaşı,bu prosesin necə getdiyinidə müəllif oxuculara çatdırmağı bacarıb.Baş verən inqilabi hərəkatın ziddiyətli tərəfləri,hərəkatda iştirak edənlərin fərqli mənafeləri göstərilib.Fərqli çıxarlar üçün inqilaba qoşulanlarla yanaşı, sırf inqilab ruhunda bu hərəkatda fəal iştirak edənlər də var idi.Əsərdən məlum

olur ki,tacirlərin bir qismi bu inqilaba varlanmaq üçün,eləcə də ruhani və kiçik burjuaziya təbəqəsindən olan bir çox iştirakçı şəxsi mənafeləri üçün burada iştirak edirlərmiş.

M.S.Ordubadi romanın I hissəsində inqilab və bu inqilabın yaranması ilə bağlı ümumi məlumat verərək təsəvvür yaradır.Xalqın ilk mübarizə əzminin formalaşması və bunula bağlı atılan addımlar müəllif tərəfindən böyük ustalıqla yaradılıb.Əsəri oxuyarkən diqqət çəkən məqamlardan biri də inqilabı əhval-ruhiyyənin formalaşması idi.Belə əhval-ruhiyyə isə təkcə güclü silahlanmaq yolu ilə deyil,həmçinin də xalq arasında söylənilən mahnılarda ,şeirlərdə də görmək olurdu.Müəllif romanın ilk hissəsində Bağırxan və Səttərxan obrazlarının vasitəsilə inqilabın tarixini canlandırır.İnqilabçıların ilkin mübarizəsi və bu mübarizənin məğlub olma səbəbi olaraq xarici müdaxiləni göstərir.Belə ki,Çar qoşunlarının Təbrizə daxil olması və silah gücünə inqilabı çökdürməyə çalışması qeyd olunur.Çar qoşunları isə Təbrizə əsaslı səbəblərlə deyil,bəhanələrlə daxil olur.Bu bəhanə isə Təbrizdə olan avropalıların məhz bu inqilaba görə təhlükə altında qalmalarına mane olmaq idi.İlk təsvir edilən İnqilab hərəkatı məğlub olasa da,digər hissələrdə müəllifin təsvir etdiyi gizli inqilabi hərəkatda Səttərxan hərəkatı ilə daim bağlı olur.Yaradılan bu komitənin yeganə vəzifəsi Səttərxan hərəkatının xalq arasında yaratdığı mübarizə əzmini qorumaq idi.Bunun üçün gizli komitənin üzvləri əllərindən gələn hər şeyi edir və bir çox hallarda içəridən olan xainlərlədə qarşılaşmalarına baxmayaraq bu mübarizədən dönmürlər.Xalqın apardığı mübarizə təkcə daxili idarəetmə ilə kifayətlənmirdi,həmçininin də xarici dövlətlərin müstəmləkəsinə çevrilməmək üçündə vuruşurdular.İranın zəngin sərvətli bir ölkə olması digər böyük dövlətlərin diqqətini çəkirdi və bu sərvəti ələ keçirmək üçün güclü mübarizə aparılırdı.M.S.Ordubadi öz romanında xarici dövlətlərin apardığı bu siyasəti hər incə detalı ilə təqdim etməyi bacarıb.İmperialist dövlətlərin maraqları İranın müstəmləkə edilməsi idi və bunun üçündə gizli fəaliyyət göstərən komitənin üzvlərini tapıb məhv etmək bu yoldakı maneələri aradan qaldırmaq demək idi.Çar hökümətinin öz nüfuzunu yüksəltmək üçün İranı ələ keçirmək istəməsi bu siyasətin bir parçası idi.Bu siyasəti

yürütmək üçün İranda imperialist dövlətlər öz konsulluqlarını yaradırdılar.Bu yaradılan konsulluqlar vasitəsilə İranı ələ keçirməyin yolları axtarılırdı.M.S.Ordubadi bu romanında böyük dövlətlərin bu siyasətini mənfi dəyərləndirmişdir.

Çar qoşunlarının Təbrizi işğal etdikdən sonrakı fəaliyyəti romanda təsvir olunan xüsusi hissələrdən biridir.Onların siyasətinin dildə söylənilən tərəfləri ilə əməldə törətdikləri tərəfləri daima ziddiyətli idi.İrana sülh,mədəniyyət kimi anlayışları gətirmək üçün daxil olduqlarını bildirən çar zabitləri öz hərəkətləri ilə söylədikləri fikirləri alt-üst edirdilər.Müəllif məhz romanında təsvir etdiyi bir epizodda bu məsələni aydın təqdim edib.Məkan olaraq seçilən Mərənd şəhərində baş verən hadisələrlə müəllif zabitlərin amansızlıqlarını göstərir.Çar zabitinin iti baqqalın satdığı qatığı yalayır və baqqal iti vurur.Bundan sonra zabit itinin vurulduğu görür qatığı baqqalın başına çırpır.Baqqal isə yarılan başının qeydinə qalmaq əvəzinə satdığı qatığın dərdini çəkir.Baqqalın bu cür təsvirini verən müəllif burada həm İran xalqının düşüncəsini,həm də çar zabitinin vəhşiliyini vurğulayıb.Hətta romandan qeyd olunan bu hissədə çar zabitinin itini belə İran kəndlisi bir əzizi olan insan kimi dəyərləndirir: “ Özləridə qonağımızdır,itləridə əzizimiz və gözümüzün işığıdır” [36,s.182].Çar zabitləri isə öz itlərini belə şərqlilərdən daha mədəni olduğunu bildirirlər.İran kəndlisinin etdiyi bu cür hərəkətləri belə üsyan kimi dəyərləndirirlər.

Çar qoşunlarının hər cür mədəniyyətsiz hərəkətləri olsa da bu gizli inqilabi komitənin mübarizə əzmini qıra bilmir.Gizli inqilabi komitənin ən fəal mübarizə üsullarından biri intibahnamələr,şəbnamələr buraxmaqla xalqı bu mübarizəyə səsləmək idi.Hər anlaşılmaz mübahisələri aydınlatmaq üçün bu şəbnamələr xalqla gizli inqilabi komitə arasında bir yardımcı vasitə rolunda çıxış edirdi.İntibahnamələr vasitəsilə İnqilabi komitənin üzvləri xalqı mübarizə əzmindən dönməməyə çağırırdı.Romandan qeyd olunan bir intibahnamə nümunəsi bu fikirləri təsdiqləyir: “ Təbrizlilər,inqilab yolunda verdiyiniz qurbanlar sizi mübarizəni davam etdirməyə dəvət edir!Daxili və xarici düşmənlərlə başladığınız mübarizəni davam etdirin!İran inqilabı məğlub olmamışdır!Əldə edilən qələbələri çox da ucuz satmayın!” [36,s.462].

Əsərdə çar qoşunlarının Təbrizə daxil olması ilə inqilabi komitənin əlehinə mübarizə aparmaraları vurğulanıb.Bununla əlaqədar olaraq bir çox qəddar addımlar atılırdı.Bunlardan biri də inqilab iştirakçısı olan şəxslərin tapılıb edam etdirilməsiydi.İnqilabın mübarizədən dönməyən üzvləri bu kimi təqiblərin olamasına baxmayaraq şəhəri tərk etmirdilər.Hətta Əbülhəsən bəyin göstərişinə belə əməl etməyib şəhərdə qalan bir çox inqilab iştirakçıları var idi.Çar ordusunun apardığı bu siyasət belə İran hökümətinin adına çıxarılırdı.Öz yeritdikləri siyasəti dövlətin daxili siyasəti kimi vurğulamaq Çar hökümətinin xüsusi taktikası idi.Bunun üçün bütün edam olunan şəxslər haqqında hökm Hacı Səməd xan Şücaüddövlə tərəfindən imzalanırdı və buda çar siyasətini pərdələyirdi.Onlar özlərini bu şəkildə göstərməklə ölkənin daxili işlərindən uzaq olduğunu bildirməyə çalışırdılar. “Dumanlı Təbriz” romanında müəllif böyük dövlətlərin yürütdüyü siyasəti təsvir edərkən təkcə Çar siyasətilə kifayətlənməyib,bununla yanaşı İngiltərənin də İrana qarşı müstəmləkəçilik siyasəti apardığını vurğulayıb.Hər iki dövlətin İran xalqının azadlıq mübarizəsini qırmaqda apardıqları siyasət göstərilib.İngiltərənin siyasəti də konsulluqlar və daxili işlərdə çalışan casuslar vasitəsilə aparılırdı.Romanın bir çox yerində ingilislərin müstəmləkə siyasəti pislənir.İngilis höküməti bu siyasətini daxildə İran hökümətinin əsas başçıları olan və hökümət işində sözdə fəallıq göstərən Səməd xan və Sərdar Rəşid kimi hiyləgər insanlar ilə həyata keçirirdi.Bu şəxslərin imzaları ilə yerinə yetirilən hökmlər olduqca acımasız idi.Müəllif romanında bu hissələri xüsusi şəkildə vurğulayır ki,bir dövlətin daxilən çürüməsinin acımasız mənzərəsi hər kəsə aydın olsun.

M.S.Ordubadi xarici dövlətlərin siyasəti,İranın daxilindəki iğtişaşları inqilabi hərəkatla paralel təsvir etməklə dövrün ictimai-siyasi mənzərəsini böyük ustalıqla yaratmağı bacarıb.Romanda İran mühitinin daxilində olan vacib məsələlərdən biri qadınların hüquqi baxımdan bərabərsizliyi idi.Bu vəziyyətdə qadınların zülm altında yaşamasına səbəb olurdu.Elə inqilabın bir məqsədidə qadın azadlığına nail olmaq idi.Buna görədə müəllif əsərində bir neçə inqilab uğrunda vuruşan qadın obrazları

yaratmışdır.Hətta qadınlar üçün xüsusi təşəbbüslər göstərilsə də daxildə olan amansız qüvvələr buna imkan vermir.

“Dumanlı Təbriz” romanı M.S.Ordubadi tərəfindən yazılan roman janrının elə bir nümunəsidir ki, müəllif həmin dövr üçün aktual olan bütün məsələlərə toxunmuşdur.Ancaq xalqın azadlığı uğrunda apardığı mübarizə romanda daha geniş şəkildə təsvir edilib.Romanın yazılma tarixindən indiyə uzun illər keçsə də bu azadlıq mübarizəsinə olan maraq azalmır.Romanın sonluğu mübarizə əzminin heç bir zaman sönmədiyinə işarə edir və gələcək mübarizələrə görə daima xüsusi üsulların axtarılmasının vacibliyi vurğulanır.Romanın süjet xətti ilə bağlı Yavuz Axundlunun söylədiyi fikir əhəmiyyətlidir: “ Dumanlı Təbrizin süjeti əsasən tarixi faktlar üzərində qurulmuşdur,onun inkişafını tərəflər arasındakı ölüm-dirim mübarizəsi şərtləndirir,konfiliktin gərginliyi də bununla əlaqədardır” [3,s.233].

Tarixi roman janrının vacib şərtlərindən biri romanda tarixiliyin düzgün şəkildə gözlənilməsidir. “Dumanlı Təbriz” romanında isə yazıldığı dövrün təsiri hiss olunur.Bu məsələ ilə bağlı Yavuz Axundlu öz fikrini qeyd edib: “...romanın yazıldığı və çap edildiyi illərin ab-havası burada öz mənfi təsirini göstərmişdir.Romanda təsvir edilən hadisələrin iştirakçısı olan,dövrün ictimai-siyasi mənzərəsini mükəmməl bilən müəllif bir sıra məsələlərdən sərf-nəzər etmiş,onları hətta xatırlatmağı mümkün saymamışdır.İran inqilabına müəyyən rolu olan N.Nərimanovun adı cəmi bir dəfə yad edilir.Görkəmli ictimai xadim M.Ə.Rəsulzadənin bu hətəkatla əlaqəsinə dair isə təbiidir ki,bir kəlmə də danışılmır” [3,s.234].

M.S.Ordubadi “Dumanlı Təbriz” romanında bir çox məsələlərə toxunmuşdur.Bu məsələlərdən biri xalqın adət-ənənəsi,məişət məsələsi idi.Romanı oxuyarkən demək olar ki,hər hissəsində kübar ailələrin məclislərinin xüsusi detallarla təsviri verilir.Müəllif buradakı məclisləri göstərməklə kübar ailələrin mənzilinin geniş təsvirinə də yer ayırır.Yazıçı evdə olan əşyalardan xüsusi seçimlər etməklə mədəniyyətimizlə bağlı olan maraqlı faktları oxuculara ötürmüşdür.Müəllifin öz nəsrində bu cür təsvir üsullarından istifadə etməsi milli mədəniyyətin bir xəzinə kimi qorunub insanların yaddaşına

ötürməsi demək idi.Ədib romanında yüksək zümrənin yaşayışını göstərdiyi kimi sadə xalqında məişət məsələsinə toxunmadan keçməmişdir.Yazıçı inqilabın əsas nümayəndələrindən olan Həsənağanın kiçik daxmasının təsvirini verməklə sadə xalqın yaşayışını canlandırmağı bacarıb.Həsənağa kimi fədakar insanların bu şəkildə yaşaması dövrün ictimai zülmündən irəli gələn bir mənzərəni gözlər önünə gətirir.Həsənağanın yaşadığı daxmanı hər cəhətdən göstərən müəllif oxuculara İran mühitində yaşayan sadə xalqın nümayəndəsinin evini bir sərgi salonu kimi gəzdirir.

M.S.Ordubadi bu cür məclislər,yaşayış evlərinin təsvirini verməklə yanaşı romanına Azərbaycan mətbəxini də bir obraz olaraq daxil etmişdir. Əsəri oxuyarkən bu təsvirə yazıçının böyük əhəmiyyət verdiyinin də şahidi oluruq.Hər cür yeməklərin təsvirini verən müəllif bununla xalqının mətbəx mədəniyyətini və bu sahədə olan bacarıqlarını tərənnüm etmişdir.

Müəllif romanında toxunduğu başqa bir məsələ sosial zümrənin davranışı,insanlar arasında olan kəskin fərqlər idi.Rus qoşunlarının Təbrizə daxil olduğu ana qədər təbrizlilər daxili hökümətin tərəfindəymiş kimi davranışlar sərgiləyirdilər.Daha sonra rus qoşunlarının şəhərə daxil olması ilə dəyişən Təbriz xalqı ilə qarşılaşırıq.Bu dəyişimi müəllif müəyyən təsvirlərlə göstərmişdir.Bu cür təsviri müəllif Rus imperiyasından qorxan xalqın həyəcanlı hərəkətləri ilə qələmə alıb.Təbrizlilərin əksəriyyətinin imperiya qoşunlarına yaltaqlıq olsun deyə rus bayraqlarını dükan,ev və bu kimi gözə görünən məkanlarda dalğalandırmaları bu bir ictimai-siyasi vəziyyətin acı təzhürü idi.

Mövzu baxımından olduqca zəngin olan “Dumanlı Təbriz” romanı ilə ədib mədəniyyətimizin bir çox qolları haqqında məlumat vermişdir.Musiqi mədəniyyətinə maraq M.S.Ordubadinin  bu məsələyə öz romanında da yer ayırmasına səbəb olmuşdur.Görkəmli sənətkarın musiqiylə bağlı görüşlərinin əks olunduğu bir məqaləsində bu fikirləri irəli sürmüşdür: “Bunu hər bir xanəndə bilir ki,ədəbiyyat kəlməsinin içərisinə tərbiyə,əxlaq,elmi məziyyət,şəxsi ucalıq,vicdan təmizliyi və eyni zamanda bəşəriyyətin təmiz və bədii əhvalatdan bəhs edən mövzularda daxildir.” [29,s.340].Romanda müəllif xüsusi diqqətlə toxunduğu məsələ rəqqasələrin,çalğıçıların

və ifaçıların adları ilə yanaşı ən incə nüansa qədər təsvir edilməsi idi.Biz bu xüsusi təsviri Əbülhəsən bəyin şah sarayında iştirak etdiyi şam yeməyində görürük.Şərq mədəniyyətinin möhtəşəm parçası olan musiqi mədəniyyətini Ordubadi öz romanında adi bir əyləncə yolu olaraq istifadə etməmişdir.Müəllifin bu cür təsvirlərə geniş yer ayırmasında səbəb müsiqinin xalqın mübarizə əzmində olan böyük təsirini göstərmək və Şərq mədəniyyətinin qədimdən gələn gözəlliyini bildirmək idi.

M.S.Ordubadi "Dumanlı Təbriz" romanı ilə oxuculara həm tarixlə bağlı dəyərli biliklər,həm də xalqın adət-ənənəsi,məişəti,mədəniyyəti ilə əlaqəli məsələləri çatdırmağı bacarmışdır.Ordubadi nəsri hər cəhətdən araşdırılmağa dəyərli bir mənbədir.

M.S.Ordubadini ədəbiyyatda ən yüksək mövqeyə gətirən onun nəsr yaradıcılığı olmuşdur.Ədibin yarım əsrdən çox müddəti özünə sığdıran yaradıcılıq illərində fərqli janrlara müraciət etsə də Azərbaycan ədəbiyyatın da böyük roman ustası kimi yaddaşlarda qalır.Yavuz Axundlunundа qeyd etdiyi kimi: "M.S.Ordubadi böyük yazıçıdır- böyük romanları ilə!Onun şairliyi də,publisistliyi də,dramnəvisliyi də böyük romançılığına sığınır.Bu həqiqətdir və kimsə bunu inkar edə bilməz!"[ 3,s.164]

Ədibin nəsr yaradıcılığında xüsusi əhəmiyyət kəsb edən romanları içərisində "Qılınc və Qələm" əsərini böyük romançılığın əsrarəngiz parçalarından biri kimi dəyərləndirmək olar.Müəllifin bu romanı özündə xüsusi məsələləri ehtiva etsə də,əsərdə diqqət çəkən ən maraqlı hissə azərbaycançılıq ideologiyasının olması idi.Məmməd Səid Ordubadinin tarixiliklə müasirliyi əlaqələndirdiyi "Qılınc və qələm" romanı özündə bir sıra önəmli məsələləri ehtiva edir Romanda toxunulan əsas məsələlərdən biri azərbaycançılıq ideologiyasıdır və bu ideyanı müəllif müxtəlif obrazlarla təqdim etmişdir. Məmməd Səid Ordubadi bu  ideyanı əsərdə Nizami Gəncəvi və Qızıl Arslanın timsalında geniş oxucu kütləsinə çatdırmağı bacarmışdır. Azərbaycançılıq ideologiyası – Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, adət-ənənlərini birləşdirən bir sistematik ideologiyadır. Məhz "Qılınc və qələm" romanında xalqın milli birliyi, adət-ənənələrinin şahidi oluruq. Əsərdə bu ideyanı təbliğ edənlərdən biri romanın mərkəzi obrazı olan Nizami Gəncəvidir. Nizami daima xalqın birliyi uğrunda mübarizə aparır və xalqı vətəni

uğrunda birliyə səsləyirdi. Ümumilikdə, əsərdə Nizami obrazı Azərbaycan xalqının dilindən danışan bir qəhrəmandır. “Qılnc və qələm” romanında yazıçı ideyanı müasirləşdirmək üçün tarixi müasirləşmə yoluna əl atır. Nizaminin, onun yaxın dostu Fəxrəddin və Qızıl Arslanın parçalanmış Azərbaycanı (şimali və cənubi Azərbaycanı) millətə istiqlaliyyət qazandırmaq məqsədilə birləşdirmək cəhdləri buna misal ola bilər.

Xalqı birliyə səsləmək, dövlətin istiqlaliyyəti uğrunda mübarizə romanın əsasını təşkil edir. Qızıl Arslanın simasında vahid Azərbaycan uğrunda mübarizə məsələsi əks olunub. Bir hökmdar kimi Qızıl Arslan apardığı siyasətdə öz dövləti və xalqı üçün savaşırdı. Əsərdə biz Qızıl Arslanın Nizami ilə daima məsləhətləşmək üçün məktublaşdığını və yaxud görüşdüyünün şahidi oluruq. Qızıl Arslanın bir hökmdar olaraq öz dövlətinin vahidliyi uğrunda qələmin və qılıncın birliyinə önəm verdiyini görürük. Azərbaycançılıq ideologiyasının əsasında hər bir Azərbaycan vətəndaşının dilimizi, mədəniyyətimizi, milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi yaşatması dayanır. Bütün bu məsələlər “Qılınc və qələm” romanının ideya-bədii xüsusiyyətlərini əhatə edir. Nizaminin Azərbaycan dili ilə bağlı görüşləri bu ideologiyanın bir hissəsini təşkil edir. Məmməd Səid Ordubadi əsərdə dil məsələsini işıqlandırmaq üçün o dövrdə ərəb, fars və Azərbaycan dilinin qarşılaşdırılması məsələsinə toxunub. Nizami bir şair və sadə xalqın təmsilçisi kimi saray mühitinin əsas verdiyi ərəb və fars dilində deyil, Azərbaycan dilində yazırdı. Qızıl Arslan və Nizami yazıçının yaratdığı qəhrəmanlar içərisində vətənpərvərlik ideologiyasının əsas aparıcı obrazlarıdır. Bu istər dövlətin idarəsi məsələlərində, istərsə də xalqın birliyi uğrunda atılan addımlarda özünü göstərir.

Məmməd Səid Ordubadinin tarixi roman janrında qələmə aldığı “Qılınc və Qələm” əsərində Azərbaycançılıq ideyalarının əks olunduğu əsas məqamlar kimi aşağıdakı nümunələri qeyd edə bilərik:

c. Şimali Azərbaycan hökmdarı Qızıl Arslanın timsalında vətənin azadlığı, istiqlaliyyəti məsələsi əks olunub;

d. Dahi şair Nizami Gəncəvinin timsalında xalqın ideyalarının carçısı olan bir qəhrəman obrazı yaradılıb;

e. romanda əsas mövzular sırasında xalqın milli birliyi, milli-mənəvi dəyərlər işıqlandırılıb;
f. əsərdə xalqın müqəddaratı məsələsinin ön plana çəkilməsi fikri qeyd olunub;
g. əsərdə tarixlik və müasirlik əlaqəli şəkildə qarşılaşdırılmışdır.

"Qılınc və Qələm" romanının geniş mütaliəsi və təhlili oxuculara zəngin materiallar ötürür.

M.S.Ordubadi nəsri təhlilə cəlb edilməyə dəyər və olduqca zəngin məlumatları ötürən bədii ədəbiyyatın incilərindəndir.Deməli M.S.Ordubadi əsərlərində istifadə etdiyi üsullar,işlətdiyi poetika romanlarının ideyasını daha dərindən mənimsəməyə yardımcı olur.M.S.Ordubadi təsvir etdiyi hər mövzuya bələd olduğu üçün onun haqqında deyə bilərik ki, Şərq mədəniyyəti ilə yanaşı dünya ədəbiyyatına da yaxşı bələd idi.Eyni zamanda sənətkar insanlara qarşı bəslədiyi ülvi məhəbbətidə öz romanlarında göstərməyi bacarmışdır. Ümumilikdə ədibin hər bir əsərinin mahiyyətinə varmaq və təhlilə cəlb etmək ədəbiyyatımız üçün olduqca lüzumlu bir məsələdir.

# NƏTİCƏ

Tədqiqatın başa çatması ilə bağlı əldə edilən vacib nəticələri qeyd etmək məqsədə uyğundur:

XX əsr Azərbaycan ədəbiyyatının bu günün qarşıya qoyduğu tələblər ilə tədqiq edilməsi əsas məsələlərdən biridir.Uzun illər ərzində ədəbiyyatımızda olan bir çox görkəmli yazıçılarımızın nadir və əvəzedilməz yaradıcılıqları birtərəfli araşdırılmışdır.Yaradıcılığı ətraflı və tam şəkildə tədqiq edilməyən sənətkarlardan biri də M.S.Ordubadidir.Görkəmli ədib haqqında müxtəlif araşdırmalar olsa da bunlar yaradıcılığının tam hərtərəfli təhlili kimi şərh edilməmişdir.Dissertasiya işində Ordubadinin nəsr yaradıcılığına aid olan romanları tədqiq edilmişdir.Əsərlərin bir hissəsi xüsusi detallarla,bəziləri isə ümumi şəkildə mövzusu,bədii xüsusiyyətləri göstərilməklə təqdim olunub.M.S.Ordubadinin bir neçə romanı yenidən müasir dövrün tələblərinə uyğun şərh edilmişdir.Ədibin romanlarında əks olunan əsas mövzular tədqiqat işində xüsusi vurğulanıb.Yazıçı bədii yaradıcılığında təkcə tərənnümdən istifadə etməmişdir.O,öz romanlarında tarixi reallıqları bildirməklə minbir əzaba düçar olan xalqının və istilalara,işğallara məruz qalan vətəninin dərdlərini açıb göstərmişdir.Bunlarla yanaşı görkəmli sənətkar Şərq mədəniyyətini,Cənubi Azərbaycan mövzusunu,tarixi-mədəni abidələri,adət-ənənələri romanlarına aktual mövzu olaraq daxil etmişdir.Ədib o dövr insanların həyatında baş verən prosesləri-rüşvətxorluğu,yaltaqlığı,insanların alçaldılmasını da ürək ağrıdan məqamlar olaraq əsərlərinə daxil edib.Dissertasiyada bu mövzularla yanaşı qadın azadlığı məsələsidə ədibin yaradıcılığına daxil olan romanlarda bir neçə situasiyada qeyd olunub.Romanlara yenidən tarixilik və müasirlik prizmasından yanaşaraq nəticələr əldə edilmişdir.

Zəngin obraz yaradıcılığına malik olan Ordubadi nəsrini bu baxımdanda şərh edilməsi məqsədə uyğundur.Ədib romanlarında zəngin obrazlar qalareyası yaratmışdır.Bu obrazlar qalareyasını yenidən şərh edilməsi ədəbiyyat üçün dəyərli nəticələr ötürür.M.S.Ordubadi müxtəlif obrazların timsalında ötürmək istədiyi ideyaları da xüsusi nəzərə çarpdırmağı bacarmışdır.Hər bir obrazın özünə uyğun xarakteri və

oxucuya ötürdüyü ideyalar olduqca vacib detaylardır.Ordubadinin bu yolla əsərlərində göstərdiyi məsələlər daha təsirli şəkildə oxucuya çatdırılıb.M.S.Ordubadinin ən irihəcmli romanı olan “Dumanlı Təbriz” əsəri bu baxımdan daha geniş imkanlar vermişdir.Müəllif bu romanı vasitəsilə geniş və rəngarəng surətlər yaratmışdır.Bu romandakı hər bir obraz müəllif tərəfindən elə təsvir edilmişdir ki,hər obrazın ötürdüyü fikirlər müəyyən bir hadisəyə şərh olaraq dəyərləndirməyə imkan verir.

Ədib öz yaradıcılığında xalqın mübarizə məsələsinə geniş yer ayırmışdır.Bu mübarizədə qadın azadlığı məsələsinə yenidən toxunulmuşdur.Müxtəlif qadın obrazları yaradan müəllifin mütərəqqi ideyaları araşdırmaya cəlb edilmişdir.Məllifin yaratdığı qadın obrazları içərisində mövhumata boyun əyənlər olsa da,bunula yanaşı mövhumatın pəncəsindən qurtulan və kişilərlə bərabər mübarizə aparan qadınların da romanlarda təsvirinin verilməsi tarixi məziyyətlərin artmasına gətirib çıxarmışdır.

M.S.Ordubadi yaradıcılığı tarixi roman janrınında geniş planda araşdırılmasına imkan yaradır.Bu prizmadan çıxış edərək tarixi detalları müasir dövrlə əlaqələndirmək üçün bir çox ideyaları şərh etməklə yekun nəticələr əldə edilmişdir.Tarixi reallığın ötürdüyü məlumatlar əsasında çağdaş dövrün problemləri ilə müqayisələr verilməsi baxımından M.S.Ordubadi nəsri olduqca dəyərlidir.

“Qanlı Sənələr” romanında verilən erməni-müsəlman davasından çıxış edərək erməni xislətindəki vəhşiliyin müasir dövrlə də müqayisəsi verilmişdir.Bu romandan çıxış edərək dövrümüz üçün aktual olan bu məsələ yenidən işıqlandırılmışdır.

Ədibin yaradıcılığında Cənub mövzusunada toxunulmuşdur.Vətənin bölünməzliyi məsələsini yenidən vurğulamaq üçün bu mövzu müasir dövrümüz üçündə olduqca aktualdır.Bu qəbildən olan romanlarında milli birlik ideyasının verilməsi və bu hislərin tədqiqat işində vurğulanması bəşəri hislərin ön plana çəkilməsi üçün olduqca dəyərlidir.Belə yeniliklərin qeyd olunması mövzunun araşdırılmasının ədəbiyyatşünaslıq üçün olduqca vacibdir.Dəyərli sənətkarın bədii nəsrində çatdırmaq istədiyi bir çox məsələlər çağdaş dövrümüz üçün olduqca aktualdır.Milli azadlıq ideyası,bəşəri

düşüncələrlə zəngin olan Ordubadi nəsri araşdırılmağa layiq olan əvəzedilməz mənbədir və çağdaş dövrümüz üçündə əhəmiyyətini heç bir zaman itirmir.

## Ədəbiyyat siyahısı:


1. Abdullayev Zakir. “Dumanlı Təbrizdə” tarixilik. “Ədəbiyyat və incəsənət” qəzeti,Bakı,1972,16 sentyabr, № 38
2. Ağayev Ə. “M.S.Ordubadi tarixi romançı kimi”. “Ədəbiyyat” qəzeti, 4 avqust 1942, №21
3. Axundlu Yavuz. Məmməd Səid Ordubadi.Həyatı,mühiti və yaradıcılığı.Bakı,Sabah,1997,350 səh
4. Axundov Y. Roman və tarix. Bakı: “Yazıçı”, 1988, 184 səh
5. Axundov Y. Tarixi roman yeni mərhələdə (1980-90-cı illər). Bakı: Maarif, 1998, 175 səh
6. Bağırov N. Hacıağa Fəqir Ordubadi. “Yeni Ordubad” qəzeti,19 iyul 1969
7. Bağırov N. M.S.Ordubadi və tarixi roman janrı.Bakı,Azərbaycan dövlət nəşriyyatı,1968
8. Bağırova Nuridə.M.S.Ordubadi və tarixi roman janrı.Bakı,Azərnəşr,1968,130 səh
9. Bünyadov Z. Azərbaycan Tarixi ( ən qədim zamanlardan XX əsrədək), I cild,Bakı, “Çıraq” nəşriyyatı,2007,359 səh
10. Cabbarlı C.Əsərləri.Dörd cilddə. II cild. “Şərq-Qərb”,Bakı,2005,360 səh
11. Cahani Q. “Qılınc və Qələm” də tarixi həqiqət. “Bakı” qəzeti. 24 may 1972
12. Cəfərzadə Ə. Məmməd Səid Ordubadi. “Azərbaycan müəllim” qəzeti,1961,14 may, №39(1235)
13. Əfəndiyev Emin. Bir daha Nina haqqında. “Ədəbiyyat və incəsənət” qəzeti,Bakı,1972,18 noyabr, №47.
14. Əkbər Məftun.M.S.Ordubadi.Bakı,Yazıçı,1987,134 səh
15. Əliyeva R. Məmməd Səid Ordubadi irsinə dövlət qayğısının parlaq təzahürü. “İki sahil” qəzeti,2019,12 yanvar,S.11
16. Hacıyev C. (Cəfər Xəndan).Məmməd Səid Ordubadi haqqında.Ədəbiyyatımızın dünəni və bu günü,Bakı,Yazıçı,1945,245 səh

**17.**Hacıyev D. “Dumanlı Təbriz” dramında milli azadlıq hərəkatının inikası// ADU-nun elmi əsərlər toplusu,dil və ədəbiyyat seriyası,1968, №6
**18.**Həbibbəyli İ. Böyük ədəbiyyat nəhəngi. Bakı: “Elm və təhsil”, 2012, 92 səh
**19.**Hüseynov T. Tarixi roman ustası. Bakı: Yazıçı, 1986, 168 səh
**20.**Xəlilov Qulu. Həyat və idrak. Bakı, Yazıçı, 1980, 361 səh
**21.**Xəlilov Qulu.Tarixi romanlar müəllifi. “Ədəbiyyat və incəsənət”qəzeti.Bakı,1972, №8
**22.**İbrahimov M.  “Nizami dramı” və tarixi dram əsərləri.10 cilddə. X cild. 1983. 507 səh
**23.**Kazımoğlu T . “Bədbəxt milyonçu”. İnqilab qəzeti, 18 aprel 1914, №630
**24.**Qafqazlı H. M.S.Ordubadi haqqında. “Ədəbiyyat və incəsənət” qəzeti,1982 2 aprel, №14(1993)
**25.**Mehdi H. Dumanlı Təbrizdə inqilab. “Dumalı Təbriz” I kitab (müqəddimə)
**26.**Mehrəliyev E.Azərbaycan Ədəbiyyatında Qarabağ Mövzusu:ideya və sənətkarlıq məsələsi. “Nurlan”,Bakı,2008,323səh
**27.**Məmmədxanlı Ə. “Dumanlı Təbriz” romanı haqqında qeydlər. “Revolyusiya və kultura” jurnalı,1939, №6
**28.**Məmmədov Ə. Azərbaycan bədii nəsri. Bakı, “Elm”,1983
**29.**Ordubadi M.S Əski və yeni şeir məktəbləri.Əsərləri 8.cilldə.8-cild.Bakı,Azərnəşr,1967.
**30.**Ordubadi M.S Həyatım və mühitim.1872-ci ildən 1920-ci ilə qədər.Tərtibçi Nailə Səmədova
**31.**Ordubadi M.S. “Bədbəxt Milyonçu”. Əsərləri 8 cilddə.5-ci cild Bakı,Azərnəşr,1964,427 səh
**32.**Ordubadi M.S. “Gizli Bakı”.Əsərləri 8 cilddə.5-ci cild.Bakı,1965,336 səh
**33.**Ordubadi M.S. Qılınc və qələm. 1-ci hissə. Bakı, 2005, 343 səh
**34.**Ordubadi M.S. Qılınc və qələm. 2-ci hissə. Bakı, 2005, 414 səh
**35.**Ordubadi M.S.Böyük sənətkar barədə xatiratım.Bəstəkar xatirəsi.Bakı,Azərnəşr,1976
**36.**Ordubadi M.S.Dumanlı Təbriz .Bakı,Qanun nəşriyyat,2018,880 səh
**37.**Ordubadi M.S.Qanlı Sənələr .Bakı,Qanun nəşriyyatı,2019,192 səh
**38.**Revolyusiya i kultura jurnalı. 1939, №6, s.91

**39.**Seyidov Y. Azərbaycan romanında azadlıq hərəkatının inikası “Azərbaycan” jurnalı.1967, №12

**40.**Seyidov Y. M.S.Ordubadi tarixi romançı kimi.Azərbaycan EA xəbərləri.Ədəbiyyat,dil və incəsənət seriyası,1973, №4,3-9 səh

**41.**Sultanlı Əli. M.S.Ordubadi. Azərbaycan ədəbiyyatı tarixi. 3 cilddə, III cild.Sovet dövrü,B.:EA nəşri,1957

**42.**Şəhanə Müşfiq. Azərbaycan ədəbiyyatında Məmməd Səid Ordubadi imzası. 525-ci qəzet,2019, 7 avqust, S.6

**43.**Tağıyev R. M.S.Ordubadi (biblioqrafiya).Bakı, “Gənclik”.1970

**44.**Talıbzadə Kamal. “Bədbəxt milyonçü”məqaləsi.Bakı,Azərnəşr,1974,318 səh

**45.**Vaqif Y. Ordubadi haqqında söz.Ədalət,2012,28 aprel,S.19

**46.**Vəzirov N. Əsərləri. “Şərq-Qərb”,Bakı,2005,422 səh

**47.**Vəzirova F. Məmməd Səid Ordubadi (monoqrafiya). Bakı:Gənclik,1970,122 səh

**48.**Vəzirova F. Məmməd Səid Ordubadi. Bakı:Elm,1972,42 səh

**49.**Vəzirova Fəridə. M.S.Ordubadinin məqalələri.Ədəbi qeydlər,tədqiqlər.Bakı,Yazıçı,1985,188 səh

**50.**Yusifli V. Romanlar, qəhrəmanlar, Ədalət,13 iyun 2020

**51.**Zeynalova S. “Qılınc və Qələm” də Nizami surəti. “Azərbaycan” jurnalı.1971. №8